RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 52 (9507) 7 mart 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Yüksək beynəlxalq etimadın növbəti nümunəsi

### Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası Bakıda keçiriləcək ən irimiqyaslı tədbirlərdən biri olacaq

Bakı şəhəri uzun müddətdir ki, qlobal səviyyədə keçirilən beynəlxalq tədbirlərin əsas ünvanı kimi tanınır. İndiyə kimi paytaxtımız saysız-hesabsız müxtəlif məzmunlu mötəbər tədbirlərə evsahibliyi edib. Hətta onların bir qisminin keçirilməsi ənənə halı alıb və təsadüfi deyil ki, Bakıda təşkil edilən tədbirlər dünyada sülhə, mədəniyyətlər və sivilizasiyalararası dialoqa böyük töhfələr verir.

#### Tədbirlərlə bağlı Azərbaycan Hökuməti ilə BMT arasında Saziş imzalanıb

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası-COP29 bu il Azərbaycanda keçiriləcək. Bakı iki həftə dünyanın mərkəzi olacaq və təqribən 70-80 min xarici qonağı qarşılayacaq. Prezident İlham Əliyevin dediyi kimi, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir və ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Bu tədbirin Azərbaycanda keçirilməsi ölkəmizə olan yüksək ehtiramdan xəbər verir.

2026-cı ildə isə Bakı daha bir mötəbər beynəlxalq tədbirə evsahibliyi edəcək. Söhbət Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasından gedir. Bu tədbirin Azərbaycanda keçirilməsinin hüquqi bazasını təşkil edən "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsi üçün Ev Sahibi Ölkəyə dair Saziş" 2023-cü il dekabrın 22-də Bakı şəhərində imzalanıb. Sazişi Azərbaycan Hökuməti adından Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və BMT-nin Məskunlaşma Proqramının ("UN-Habitat") icraçı direktoru Maimunah Mohd Şərif imzalayıblar.

Milli Məclisin martın 6-da keçirilən iclasında təsdiq edilən bu saziş Azərbaycan və BMT arasında xüsusi imtiyazlar və immunitetlər, ölkə ərazisinə sərbəst giriş-çıxış hüququ, texniki avadanlığın və tədbir üçün tələb olunan malların idxal-ixrac icazələri, forumun səmərəli fəaliyyətini təmin etmək üçün tələb oluna bilən mühafizə və digər təşkilati məsələləri tənzimləyir.

→ 3

## Bütün vəzifələr uğurla yerinə yetirilir

### Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Hökumətinin sədri ilə görüşü olub

**Martın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Hökumətinin sədri Mixail Mişustin birgə foto çəkdirdilər.

Görüş iştirakçılarını salamlayan **Prezident İlham Əliyev dedi:**

- Hörmətli Mixail Vladimiroviç.

Hörmətli qonaqlar.

Sizi Azərbaycanda bir daha görməyimə şadam. Bilirəm ki, dünən sizin həmkarınızla çox məhsuldar görüşünüz olub. O, səhər mənə yaxşı nəticələr, gələcək planlarımız haqqında məruzə edib. Biz ili uğurla başa vurmuşuq. İkitərəfli qarşılıqlı fəaliyyət nəzərdə tutduğumuz qaydada inkişaf edir. Artıq iki ildən bir az çoxdur ki, biz müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində əməkdaşlıq edirik, əlaqələrin möhkəmləndirilməsi üzrə qarşıya qoyulmuş bütün vəzifələr uğurla yerinə yetirilir.

İqtisadi-ticari sahəyə gəldikdə, həmçinin hesab edirəm ki, nəticələr tamamilə qənaətbəxşdir, 17 faizlik artım var. Zənnimcə, yaxşı göstəricidir. Artıq 4,5 milyard dollar səviyyəsinə yaxınlaşırıq. Amma təbii ki, bu, son hədd deyil. Əminəm ki, səfər zamanı əldə olunmuş razılaşmalar çərçivəsində həm növbəti ildə, həm də bu il biz ilin yekunlarına görə qarşılıqlı ticarətdə daha böyük artımın şahidi olacağıq.

Şadam ki, sənaye kooperasiyası layihələri reallaşdırılır. Bu, əməkdaşlığımızın nisbətən yeni sahəsidir.

→ 2

## Azərbaycan xalqı hər zaman qadına dərin ehtiram bəsləmiş, ana haqqını uca tutmuşdur

### 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan xalqı hər zaman qadına dərin ehtiram bəsləmiş, ana haqqını uca tutmuşdur. Ölkəmizdə dövlət qadın siyasətinin başlıca prinsipləri bu çoxəsrlik zəmin üzərində formalaşmışdır.

Zəngin mənəvi-əxlaqi sərvətlərimizin qorunub saxlanılması və günümüzədək layiqincə yaşadılması analarımızın adı ilə sıx bağlıdır. Gözəlliyi, zərifliyi və nəcibliyi ilə seçilən Azərbaycan qadınları, həmçinin hünər və igidlik göstərərək tariximizə parlaq səhifələr yazmışlar. Onlar taleyüklü bütün sınaq anlarında həmişə cəmiyyətimizə əsl mənəvi dayaq olmuş, 44 günlük Vətən müharibəsindəki fədakarlıqları ilə bu gerçəyi bir daha sübuta yetirmişlər.

Xalqımıza xas ənənəvi ailə dəyərlərinə sadiq qalan çağdaş Azərbaycan xanımları, eyni zamanda güclü müasirlik duyğusuna və yenilikçi təbiətə sahibdirlər. Mədəni tərəqqi yolunda əzmlə çalışmış maarifpərvər sələflərinin yaradıcı düşüncəli davamçıları kimi onların hazırkı yüksək ictimai nüfuzu və səhiyyə, təhsil, mədəniyyət, elm sahələrindəki mühüm nailiyyətləri ölkəmizin hərtərəfli inkişafını səciyyələndirən amillərdəndir.

Biz müstəqillik dövrümüzün şərəfli və qürurverici mərhələsindəyik. İnanıram ki, Azərbaycan qadınları gənc nəslin vətənə, milli ideallarımızın təcəssümü olan dövlətçiliyimizə sədaqət ruhunda yetişməsini bundan sonra da xüsusi diqqətdə saxlayacaq, cəmiyyətin yüksəlişinə ahəngdarlıq qazandıran dolğun sosial-mədəni fəaliyyətləri ilə parlaq gələcəyimiz naminə quruculuq işlərində yaxından iştirak edəcəklər.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2024-cü il*

## COP29-a evsahibliyi etmək Azərbaycanın təməl haqqıdır

"Qlobal Metan Vədi" Birləşmiş Krallığın Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 26-cı sessiyasında (COP26) ABŞ və Aİ tərəfindən metan emissiyalarının azaldılması ilə bağlı qlobal öhdəlik kimi irəli sürülmüş təşəbbüsdür. Hazırda 155 ölkə bu beynəlxalq öhdəliyə qoşulduğunu elan edib və qlobal metan çirklənməsinin təxminən yarısı həmin ölkələrin payına düşür.

Azərbaycan qlobal iqlim dəyişikliyi ilə mübarizədə də fəallığı ilə seçilir. Bununla bağlı yayılan məlumatda bildirilir ki, ölkəmizin "Qlobal Metan Vədi"nə qoşulması onun dünyada etibarlı "yaşıl enerji" tərəfdaşı kimi mövqeyini daha da gücləndirir. Beynəlxalq birliyin məsuliyyətli üzvü kimi Azərbaycan hər zaman qlobal iqlim siyasəti ilə bağlı dövlətlərin apardığı birgə fəaliyyətə əhəmiyyətli dəstək və töhfə verir, "yaşıl hədəflər" uğrunda daha çox səy göstərilməsini təşviq edir.

→ 7

## Xankəndidə separatizmi simvolizə edən binalar sökülür

Vətən müharibəsindən sonra Ermənistan mətbuatı Azərbaycanın ermənilərə məxsus dini abidələri dağıtması haqqında böhtan, yalan kampaniyası apararaq beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışdı. Erməni ideoloqları hesab edirlər ki, yalandan hay-həşir salmaqla Qarabağda törətdikləri cinayətləri ört-basdır edə biləcəklər. Azərbaycana qarşı qərəzli kampaniya aparmağa həvəsli olan Ermənistanın əlinə indi də yeni "fürsət" düşüb. Azərbaycan hökuməti işğal dövründə Ermənistanın Xankəndidə qanunsuz inşa etdiyi binaların sökülməsi haqqında qərar verib. Mətbuatdan da məlum olduğu kimi, artıq bir neçə gündür ki, Xankəndidə qanunsuz tikilmiş, separatizmi simvolizə edən binalarda söküntü işləri aparılır.

→ 8

## Haqlı və güclü olan Azərbaycandır

### Ermənistanın buqələmunluğunun heç bir faydası olmayacaq



44 günlük İkinci Qarabağ müharibəsinin başa çatmasından ötən 3 ildən artıq zamanda Ermənistan bütün danışıqlarda sülhə hazır olduğunu bildirsə də, əməldə köhnə peşəsini davam etdirir. İşğal dövründə 30 il Azərbaycanın sülh istəyinə qarşı heç bir reaksiya verməyən beynəlxalq təşkilatlar, bəzi böyük dövlətlər indi Ermənistanın xeyrinə hansısa iş görməyə çalışırlar. 30 il ərzində işğalçıya, uşaq qatillərinə qarşı heç bir sanksiya tətbiq etməyən Avropa təşkilatları, 2020-ci ilin noyabrından Azərbaycanı hədəfə alıblar. Bütün istiqamətlərdə qarayaxma, iftira və böhtan kampaniyası apararaq erməni lobbisinə yarınmaq istəyirlər.

→ 6

## Azərbaycanın kifayət qədər enerji ehtiyatları var

Azərbaycan hazırda Avropa bazarına enerji ixracının çoxşaxəliliyini təmin etmək üçün müzakirələr aparır. İxracın yaxın illərdə 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Azərbaycanın qaz ehtiyatları zəngindir. Ölkəmizdə kifayət qədər dayanıqlı enerji mənbələri mövcuddur. Bunu nəzərə alan Aİ Azərbaycandan daha çox qaz almaq istəyir. "Ölkəmizin təsdiq edilmiş qaz ehtiyatlarının həcmi 2,6 trilyon kubmetrdir. Belə həcm öz istehlakımız və ixrac üçün ən azı 100 il kifayət edər. Hazırda yeni yataqların kəşf edilməsi ilə bağlı işlər davam etdirilir. Bu, xarici şirkətlərin və Avropa ölkələrinin də marağının artmasına səbəb olmaqdadır. Avropa ölkələri mövcud perspektiv qaz mənbələrini nəzərə alaraq Azərbaycanla əməkdaşlığı genişləndirməyə çalışırlar.

→ 7

## Fransaya Cənubi Qafqazda yer yoxdur

Son hadisələr göstərir ki, Ermənistan yavaş-yavaş Rusiyaya arxa çevirir. Görünür ki, Fransanın verdiyi vədlər daha cəlbedicidir. Makron yağlı vədləri ilə Paşinyanı aldada bilir. Bir müddət əvvəl Fransa Ukrayna cəbhəsində bir işə yaramayan, texniki göstəriciləri müharibə zərbələrinə tab gətirməyən zirehli maşınlarını Ermənistana göndərmişdi. Təkcə yerli deyil, xarici hərbi ekspertlər də bu döyüş maşınlarının həqiqətən zəif olduğunu qeyd edirdilər. Ekspertlərin dedikləri çox inandırıcı idi. Çünki əgər bu zirehli texnikaların döyüş qabiliyyəti yüksək olsaydı, onu ukraynalı hərbçilər geri qaytarmazdılar. Ukraynadan fərqli olaraq Ermənistan bu silahları çox sevinə-sevinə alır. Ermənilərdən daha çox erməni kimi addımlar atan Fransa prezidenti Emmanuel Makron arsız-arsız Ermənistana silah tədarükünü davam etdirəcəklərini söyləyib.

→ 6

# Bütün vəzifələr uğurla yerinə yetirilir

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Hökumətinin sədri ilə görüşü olub

*Əvvəli 1-ci səh.*



Rusiyanın Azərbaycandakı şirkətləri yeni istehsal sahələri, xidmət mərkəzləri yaradırlar. Bütün bunlar isə sənaye sahəsində daha geniş əməkdaşlığa kömək edir.

Sizin səfərinizdən əvvəl materiallara baxdım, kənd təsərrüfatı üzrə bir-birimizi tamamlayırıq. Bizə lazım olanı sizdən əldə edirik və bu, əks istiqamətdə də həyata keçirilir. Həmçinin sevinirik ki, razılaşdığımız kimi, Rusiya bazarına Azərbaycan kənd təsərrüfatı məhsullarının tədarükünün böyük həcmdə artması uğurla davam edir.

Əlbəttə ki, Sizin də dünən geniş bəhs etdiyiniz nəqliyyat-logistika sahəsi ilə bağlı müvafiq sənədlər imzalanıb. Burada həm tranzit daşımalarının, həm də ikitərəfli yük daşımalarının artdığını görürük. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ölkələrimizi birləşdirən layihədir.

Bildiyiniz kimi, biz bütün zəruri məsələlərin reallaşdırılması üzrə fəal qarşılıqlı fəaliyyət göstəririk. Azərbaycan ərazisində, eləcə də Rusiya ərazisində infrastruktur mövcuddur, yeganə lazım olan planlaşdırıldığından artıq yük həcmini nəql etmək üçün onun modernləşdirilməsidir.

Əlbəttə ki, humanitar sahə. Burada, zənnimcə, Rusiya ilə Azərbaycan arasında münasibətlər iki qonşu dost dövlətlərin münasibətləri üçün nümunə ola bilər. Azərbaycanın 26 ali məktəbində rus dilində təhsil həyata keçirilir, 16 min Azərbaycan vətəndaşı olan tələbə rus dilində təhsil alır. Həmçinin 324 orta məktəbdə təhsil rus dilindədir. Biz onilliklər ərzində xalqlarımızı birləşdirən bütün yaxşı cəhətləri qorumuşuq və qarşılıqlı fəaliyyət göstərdiyimiz ictimai-siyasi formasiyadan asılı olmayaraq, xalqlarımız arasında dostluq əlaqələri həmişə dövlətlərarası münasibətlərin bünövrəsi olub. Bu gün isə dövlətlərarası münasibətlərin forma və məzmun etibarilə keyfiyyətcə yeni səviyyəyə yüksəldiyi bir vaxtda, təbii ki, bu, həmçinin ölkələrimizdə ictimaiyyət tərəfindən də dəstəklənir. Beləliklə, əminəm ki, ötən il olduğu kimi, biz bu ili də yaxşı nəticələr ilə başa vuracağıq. Müttəfiqlik qarşılıqlı fəaliyyətimiz ölkələrimizin və xalqlarımızın rifahı naminə möhkəmlənəcək, həmçinin bu, regional sabitliyin və təhlükəsizliyin mühüm amilidir.

Sizi bir daha salamlayıram və səfərinizin artıq başa çatdığını nəzərə alaraq, yaxşı yol arzulayıram. Əlbəttə, hesab edirəm ki, dövlət başçılarının müntəzəm görüşləri nümunəsində olduğu kimi, hökumət rəhbərləri səviyyəsində də belə müntəzəm görüşlərin keçirilməsi faydalı olardı.

❖ ❖ ❖

Rusiya Federasiyası Hökumətinin sədri **Mixail Mişustin** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli dostlar.

Əvvəlcə, Sizi fevralın 7-də keçirilən növbədənkənar Azərbaycan Prezidenti seçkilərində inamlı qələbə münasibətilə səmimi-qəlbdən təbrik etmək istəyirəm. Bu, Sizin səylərinizlə və rəhbərliyinizlə ölkənizdə əldə olunan bütün nailiyyətlərə Azərbaycan xalqı tərəfindən verilən yüksək qiymətdir. Əlbəttə, fürsətdən istifadə edərək, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin ən səmimi və xoş arzularını çatdırmaq istəyirəm.

Biz Azərbaycan Hökumətinin hörmətli başçısı Əli Hidayət oğlu Əsədovla daim təmasdayıq və müntəzəm görüşlər keçiririk. Elə bu yaxınlarda - dekabrda Moskvada Müstəqil Dövlətlər Birliyinin forumunda görüşmüşük, ondan əvvəl isə Soçidə görüş olub. Mənə elə gəlir ki, bu yaxınlarda Azərbaycana səfərim olub. Sizi əmin etmək istəyirəm ki, dövlətlərimizin rəhbərləri arasında qəbul olunan qərarların hamısı daimi nəzarətdədir, hökumətlərimiz tərəfindən icra olunur.

Dünən geniş ikitərəfli gündəliyi müzakirə etdik. Siz bir neçə istiqaməti xatırlatdınız, sənaye sahəsində daha çox layihələr var. Biz, həmçinin nəqliyyat maşınqayırması sahəsində birgə layihələr barəsində düşünürük. Eyni zamanda qarşılıqlı iri texnoloji, innovativ layihələr üzrə perspektivli istiqamətlər də var. Kənd təsərrüfatı sahəsi üzrə də işləyirik. Siz tamamlama haqqında danışdınız. Həmçinin əczaçılıq üzrə bir sıra məsələlərimiz mövcuddur. Dünən bu sahədə işlərin gücləndirilməsinə dair razılıq əldə etdik. Belə desək, bu gün bizim qarşılıqlı layihələrimizin bütün palitrası nəzarətimizdədir. Qarşılıqlı iqtisadi-ticari dövriyyə rəqəmləri də bunu göstərir. Siz 17 faizlik artım barədə danışdınız. Bu, belədir.

Həmçinin demək istəyirəm ki, bizim keçid məntəqələrimizdə daşıma gücləri 5 dəfə artıb. Bu da bizim Nəqliyyat Nazirliyinin Azərbaycandan olan hörmətli həmkarları ilə birgə böyük sistemli işidir. Biz, həmçinin burada logistika üzrə bütün müvafiq layihələri davam etdiririk. Siz "Şimal-Cənub" dəhlizini qeyd etdiniz. Həqiqətən 30 milyon ton ciddi həcmdir və əlbəttə ki, məntəqələrdə dar yerlərin qalmaması üçün çoxlu iş görülməlidir.

Həmçinin demək istəyirəm ki, biz atanız hörmətli Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş anım tədbirini böyük ehtiramla keçirdik. Rusiyada onu xatırlayırlar, xatirəsini əziz tuturlar.

Mədəni mübadilə. Bu sahədə qarşılıqlı fəaliyyətlə bağlı məsələlər üzrə çoxlu layihələr və ideyalar var. Bu gün Rus Dram Teatrında oldum, orada mədəniyyət sahəsində qarşılıqlı fəaliyyətdən bəhs etdilər. Biz əlaqələrimizin, o cümlədən Azərbaycan Mədəniyyət Nazirliyi ilə əməkdaşlığın genişləndirilməsi üzrə razılıq əldə etdik. Çoxlu sayda tədbirlərin keçirilməsi üzrə Yol xəritəsi üzərində işləyirik. Əlbəttə, Azərbaycanın hörmətli mədəniyyət və incəsənət xadimlərini Rusiyada, Moskvada görməyə şad olacağıq.

Sizə və həmkarlarıma Rusiya nümayəndə heyətinə göstərilən səmimi, ənənəvi mehriban qəbula görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

❖ ❖ ❖

Dövlətimizin başçısı Rusiya Prezidentinin səmimi və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da xoş arzularını Vladimir Putinə çatdırmağı xahiş etdi.

## Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin martın 6-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər güllər düzülüb.

## Rusiya Federasiyası Hökumətinin sədri Bakıda şəhidlərin xatirəsini anıb



Ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin martın 6-da Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, M.Mişustin Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramını bildirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

## Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinin Azərbaycana səfəri başa çatıb



Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinin Azərbaycan Respublikasına səfəri martın 6-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rusiya Hökumətinin sədrini Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev, xarici işlər nazirinin müavini Elnur Məmmədov, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov və digər rəsmi şəxslər yola saldılar.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə zati-alinizə şəxsən öz adımdan və Tunis xalqı adından ən səmimi təbriklərimi, xoş arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, ali dövləti vəzifənizdə uğurlar diləyirəm.

Bu fürsətdən istifadə edərək, xalqlarımızın maraqları naminə ölkələrimiz arasındakı qardaşlıq münasibətlərini möhkəmləndirmək və əməkdaşlıq əlaqələrini inkişaf etdirmək üçün Sizinlə birgə işləməyə sadiq olduğumuzu bir daha bildirirəm.

Cənab Prezident, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Kays SAYİD,***
***Tunis Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Timor-Leste Demokratik Respublikası adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi Sizə çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Bu qələbə təkcə Sizin prezidentlik səlahiyyətinizin davamı deyil, həm də Azərbaycanın gələcəyi naminə zati-alinizin liderliyinə və strategiyasına göstərilən etimadın təzahürüdür. Sizin dövlətə xidmətdə əldə etdiyiniz nailiyyətlər və fədakarlığınız ölkənizin inkişafına və rifahına olan sadiqliyinizin təsdiqidir.

Ötən ilin mart ayında zati-alinizlə X Qlobal Bakı Forumunda iştirakım çərçivəsində keçirilən tarixi görüşü böyük məmnunluq hissi ilə xatırlayıram. Bu görüş xalqlarımız arasında qardaşlıq, dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə təkan verib.

Əminəm ki, prezidentliyinizin yeni dönəmində biz Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) dəstəyi ilə böyük potensiala malik mühüm sahələrdə, xüsusilə də təbii sərvətlərin istismarında, infrastruktur, gübrə istehsalı və təhsil sahələrində yeni investisiyalar, layihələr və tərəfdaşlıqlar həyata keçirə biləcəyik.

Biz yalnız Qoşulmama Hərəkatı çərçivəsində deyil, həm də Ümumdünya Ticarət Təşkilatına (ÜTT) və Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasına (ASEAN) inteqrasiya səviyyəsində Timor-Leste ilə Azərbaycan arasında ikitərəfli və çoxtərəfli əlaqələrin qarşılıqlı maraqlarımız naminə möhkəmləndirilməsinə, əməkdaşlıq üçün yeni imkanların nəzərdən keçirilməsinə sadiqliyimizi bir daha vurğulayırıq.

Qoy zati-alinizin yeni mandatı Azərbaycan xalqına daha böyük nailiyyətlər, davamlı inkişaf və firavanlıq gətirsin! Bu ilin sonunda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi etməsi münasibətilə Azərbaycanı ürəkdən təbrik edirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, uğurlar və firavanlıq arzulayıram. Bir daha Sizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Jose Ramos HORTA,***
***Timor-Leste Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Rəhbərliyinizlə işğaldan azad edilmiş torpaqlar da daxil olmaqla Azərbaycanın bütün ərazisində fevralın 7-də əmin-amanlıq şəraitində keçirilmiş prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi təbrik edirəm.

Zati-alinizin və cənab Prezidentimizin rəhbərliyi ilə ölkələrimiz arasında "Bir millət, iki dövlət" prinsipi əsasında inkişaf edən bənzərsiz dostluq və qardaşlıq münasibətləri regionumuzda sülhün və sabitliyin ən böyük təminatıdır.

Fürsətdən istifadə edərək zati-alinizə cansağlığı və xoşbəxtlik arzularımı çatdırır, dərin ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Fuat OKTAY,***
***Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri***

## Azərbaycan ilə Konqo arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi müzakirə edilib



Martın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Konqo Prezidentinin strateji məsələlər və beynəlxalq əməkdaşlıq üzrə şəxsi nümayəndəsi Fransua Joli ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Konqo arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi müzakirə edilib. Görüşdə Afrika ölkələri ilə əməkdaşlığın inkişafının ölkəmizin əsas xarici siyasət prioritetlərindən biri olduğu vurğulanıb. Azərbaycan ilə Konqo arasında siyasi, iqtisadi-ticarət və energetika, eləcə də təhsil və humanitar sahələrdə münasibətlərin genişləndirilməsi üçün geniş imkanların mövcud olduğu bildirilib.

Qoşulmama Hərəkatı, BMT və digər beynəlxalq təsisatlar və platformalar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstəyindən məmnunluq ifadə olunub. Qoşulmama Hərəkatına (QH) üzv dövlətlər üçün təqaüd proqramı çərçivəsində konqolu tələbələrin ölkəmizdə təhsil almaları, Hərəkatın Gənclər Təşkilatında nümayəndələrin iştirakı üçün imkanlar nəzərdən keçirilib.

Nazir Ceyhun Bayramov bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) əlavə əməkdaşlıq imkanları yaratdığını diqqətə çatdırıb.

Daha sonra qarşılıqlı maraq doğuran ikitərəfli və çoxtərəfli məsələlər barədə fikir mübadiləsi aparılıb.

## Azərbaycan və Dünya Bankı arasında əməkdaşlıq perspektivləri müzakirə olunub

Martın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan və Dünya Bankı arasında əməkdaşlıq perspektivləri, habelə cari ildə ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından (COP29) irəli gələn məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmiz üçün əhəmiyyət kəsb edən bir sıra, o cümlədən iqtisadiyyat, kənd təsərrüfatı, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar, infrastruktur kimi istiqamətlər üzrə uğurla icra olunan, habelə davam etdirilən layihələrin əməkdaşlığın inkişafına töhfə verdiyini məmnunluqla qeyd edib. Dünya Bankı çərçivəsində əməkdaşlığın öz növbəsində ölkəmizin digər regional və beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrini genişləndirməsinə təkan verdiyi diqqətə çatdırılıb.

COP29-a sədrliyimiz çərçivəsində aparılan substantiv danışıqlar prosesi, habelə 29-cu sessiyaya hazırlıq işləri barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov, sədrliyimizin əsasən qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə maliyyə resursları və investisiyaların cəlbinə vurğu etdiyini söyləyib. Bu istiqamətdə dövlətlərlə yanaşı, beynəlxalq maliyyə institutlarının prosesə mümkün töhfəsinin müəyyən edilməsi istiqamətində təmasların aparılması baxımından Dünya Bankının mühüm platforma rolu oynaya biləcəyi qeyd olunub.

Postmünaqişə dövründə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərindən bəhs edən nazir Ceyhun Bayramov, görülən işlərin eyni zamanda Qarabağ və Şərqi Zəngəzur bölgəsinin alternativ enerji potensialından səmərəli istifadəyə yönəldiyini, bu istiqamətdə müvafiq layihələrə artıq bir sıra xarici tərəfdaşların cəlb olunduğunu diqqətə çatdırıb.

Müqabil tərəf Azərbaycanı COP29-a sədrliyi münasibətilə təbrik edərək, ölkəmizin uğurlu sədrlik təcrübəsi nümayiş etdirəcəyinə, habelə sədrlik prioritetlərinə müvafiq olaraq beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın genişləndiriləcəyinə dair inam ifadə edib. Xüsusilə, COP29 çərçivəsində müəyyənləşəcək qlobal öhdəliklərin öz praktiki icrasını tapması istiqamətində addımlar atılmasının vacibliyi qeyd olunub, Dünya Bankının bu istiqamətdə təşəbbüslərin dəstəklənməsinə hazır olduğu vurğulanıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan parlamentinin UNICEF ilə əməkdaşlıq məsələləri nəzərdən keçirilib



**Martın 6-da Milli Məclisin Sədri Sahibə Qafarova UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Saca Faruq Abdullahı qəbul edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı Azərbaycanda fəaliyyətə başlaması münasibətilə təbrik edən spiker Sahibə Qafarova inamını ifadə edib ki, onun UNICEF-in Azərbaycandakı nümayəndəsi kimi fəaliyyəti UNICEF ilə Azərbaycan arasında əməkdaşlığın möhkəmlənməsinə töhfə verəcək.

Görüşdə qeyd olunub ki, Azərbaycan BMT-yə üzv olduqdan sonra BMT-nin müxtəlif qurumları ilə fəal əməkdaşlıq əlaqələri qurub. UNICEF ilə Azərbaycan arasında əməkdaşlıq ölkəmizin müstəqilliyinin ilk günlərindən başlayıb və ötən il UNICEF-in Azərbaycandakı fəaliyyətinin 30 illiyi qeyd olunub. Hazırda bu təşkilatla Azərbaycanın müxtəlif dövlət qurumları, o cümlədən Milli Məclis arasında yaxşı əməkdaşlıq əlaqələri mövcuddur.

Spiker Sahibə Qafarova Milli Məclisin qadın, ailə və uşaq məsələləri üzrə qanunvericilik sahəsində fəaliyyəti haqqında məlumat verib. Qeyd olunub ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə Milli Məclisin müvafiq komitəsi arasında fəal əməkdaşlıq mövcuddur.

Görüşdə bildirilib ki, Milli Məclisdə uşaqlarla bağlı 35 qanun qəbul edilib, 100-dən çox qanuna əlavə və dəyişikliklər olunub.

Milli Məclisin Sədri xatırladıb ki, bir neçə gün əvvəl Azərbaycan parlamenti "Məişət zorakılığı haqqında" qanuna dəyişiklik edilməsi barədə qanun qəbul edib. Qanun məişət zorakılığına qarşı mübarizə sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsini və bir sıra digər tədbirləri ehtiva edir.

Sahibə Qafarova görüşdə, həmçinin Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən bərpa və quruculuq işləri, keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıtması barədə də məlumat verərək, işğaldan azad edilən ərazilərimizdə Ermənistan tərəfindən basdırılmış minaların yaratdığı təhlükələr haqqında danışıb.

Görüşdə Azərbaycan parlamentinin UNICEF ilə əməkdaşlıq məsələləri də nəzərdən keçirilib. Qeyd olunub ki, Azərbaycan parlamenti UNICEF-lə birlikdə bəzi tədbirlər həyata keçirib. Qarşıdakı dövrdə də bu istiqamətdə əməkdaşlığın davam etdirilməsi ilə bağlı qarşılıqlı niyyət ifadə olunub.

UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Saca Faruq Abdullah ölkəmizi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a ev sahibliyi etməsi üçün seçilməsi münasibətilə təbrik edib. Qonaq bildirib ki, bu qərar Azərbaycanın sözügedən sahədə əldə etdiyi nailiyyətlərin yüksək səviyyədə tanınması deməkdir.

O deyib ki, Azərbaycanda uşaq hüquqlarının qorunması istiqamətində mühüm nailiyyətlər əldə olunub. Bunlar Davamlı İnkişaf Məqsədlərinə də uyğundur. Qonaq UNICEF-in Azərbaycanla uşaq hüquqlarının daha da inkişaf etdirilməsi istiqamətində əməkdaşlığı davam etdirmək niyyətində olduğunu da diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Latviya Azərbaycanla strateji tərəfdaşlıq əlaqələrinə xüsusi əhəmiyyət verir



**Martın 6-da Milli Məclisin Sədri Sahibə Qafarova Latviya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Edqars Skuyanı qəbul edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan və Latviyanın dost və tərəfdaş ölkələr olduğunu vurğulayan spiker Sahibə Qafarova, ikitərəfli münasibətlərimizin zəngin tarixə malik olduğunu qeyd edib. Vurğulanıb ki, qarşılıqlı təmaslar, ali və yüksəksəviyyəli səfərlər ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinə töhfə verir.

Görüşdə bu il Azərbaycan və Latviya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğu, ötən dövr ərzində ölkələrimiz arasında müxtəlif sahələr üzrə münasibətlərin uğurla inkişaf etdiyi bildirilib. Qeyd olunub ki, iqtisadi, ticarət, investisiya, humanitar sahələrdə əlaqələrin daha da dərinləşdirilməsi üçün yaxşı imkanlar mövcuddur.

Söhbət zamanı parlamentlər arasında əlaqələrin daha da inkişafı ilə bağlı perspektivlərə dair də fikir mübadiləsi aparılıb. İkitərəfli əlaqələrin inkişafında parlamentlərarası əməkdaşlığın mühüm rol oynadığını bildirən Milli Məclisin Sədri özünün Latviyaya rəsmi səfərini məmnunluqla xatırladaraq, dostluq qruplarının da fəaliyyətini qeyd edib. O, parlament diplomatiyasının əhəmiyyətini nəzərə alaraq, əməkdaşlığın həm ikitərəfli, həm də beynəlxalq və regional parlament platformaları çərçivəsində gücləndirilməsinin əhəmiyyətini qeyd edib. Sahibə Qafarova bəzi beynəlxalq təşkilatlarda Azərbaycana qarşı ikili standartların mövcud olduğunu diqqətə çatdırıb. Spiker bu çərçivədə Avropa Şurası Parlament Assambleyasının Azərbaycan nümayəndə heyətinin etimadnaməsini ratifikasiya etməməsini tənqid edərək deyib ki, AŞPA bu cür yanlış yanaşmadan imtina etməlidir.

Görüşdə regionda mövcud olan vəziyyət barədə də müzakirə aparılıb. Milli Məclisin Sədri təəssüflə qeyd edib ki, Azərbaycan öz torpaqlarını azad etdikdən sonra təzyiqlərlə üzləşib. Bəzi dövlətlər və beynəlxalq təşkilatlar Ermənistanın yalan, uydurma məlumatlarına istinad edərək, ölkəmizə təzyiqlər göstərməyə çalışırlar.

Spiker tərəflər arasında daimi sülhün təmin olunmasının önəmini qeyd edərək deyib ki, bu Cənubi Qafqazda uzunmüddətli sabitlik baxımından çox vacibdir.

Göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən səfir Edqars Skuya ölkəmizdə gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını söyləyib. Diplomat ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a evsahibliyi etməsi üçün seçilməsi münasibətilə təbrikini çatdırıb.

Latviyanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini deyən səfir ölkəsinin Azərbaycanla strateji tərəfdaşlıq əlaqələrinə xüsusi əhəmiyyət verdiyini qeyd edib. Edqars Skuyanın sözlərinə görə, son dövrlərdə iki ölkə arasında iqtisadi sahədə, o cümlədən işgüzar dairələr arasında əlaqələr daha da genişlənməkdədir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Rəşad İSLAMOĞLU,***
***"Azərbaycan"***

# Milli Məclisdə vətəndaş qəbulu keçirilib

Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev qəbul qrafikinə uyğun olaraq martın 6-da Milli Məclisin inzibati binasında şəhid ailələrinin üzvlərini, qaziləri, habelə müraciət edən digər vətəndaşları qəbul edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qəbul zamanı vətəndaşlar tərəfindən sosial, humanitar, təhsillə bağlı edilən müraciətlərin bir qismi vitse-spiker tərəfindən yerindəcə həll olunub. Digər müraciətlərin həlli məqsədilə sədr müavini Adil Əliyev tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarına aidiyyəti üzrə məktublar göndərilib, vətəndaşlara mövcud qanunvericiliyin tələblərinə dair hüquqi izahlar verilib. Araşdırılması vaxt tələb edən müraciətlərin hər biri vitse-spiker



tərəfindən nəzarətə götürülərək, həlli istiqamətində müvafiq addımlar atılır.

Qeyd edək ki, vətəndaşların müraciətlərinə yüksək həssaslıqla yanaşılması barədə dövlət başçısının verdiyi tapşırıqlara uyğun olaraq, sədr müavininin ünvanına daxil olan bütün müraciətlər tam, hərtərəfli araşdırılır və qanunvericiliyə uyğun olaraq lazımi tədbirlər görülür.

***"Azərbaycan"***

# Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsil haqqı dövlət büdcəsindən ödəniləcək



Martın 6-da Milli Məclisin Elm və təhsil komitəsinin növbəti iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda birinci oxunuşda olan iki qanun layihəsi - "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərərçəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Peşə təhsili haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri müzakirə edilib.

Mahiyyətcə bir-biri ilə bağlı olan qanun layihələri haqqında ümumi məlumatı komitə sədri Bəxtiyar Əliyev təqdim edib. O, Prezident İlham Əliyevin əhalinin aztəminatlı təbəqələrindən olan və sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsilə əlçatanlığını genişləndirməyə xidmət edən siyasətindən söz açıb, dövlət başçısının müvafiq tapşırıqları ilə ali təhsil müəssisələrində dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının və həcminin ilbəil artırılmasından, sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsindən danışıb. Qeyd edib ki, Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi, peşə təhsili müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi və digər islahatlar dövlət başçısının təhsilə, insan kapitalının inkişafına, xüsusən də sosial müdafiəyə ehtiyacı olan vətəndaşlara yüksək diqqətinin təzahürüdür.

Komitə sədri bildirib ki, müzakirəyə təklif olunan "Təhsil haqqında" qanuna təklif edilən dəyişikliklər sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə hazırlanıb və qanunun yeni redaktədə təqdim olunan 14.8-1-ci maddəsində bu şəxslərin tam dairəsi müəyyən edilib.

Müzakirəyə çıxarılan ikinci qanun layihəsində isə sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsinin digər qanunlarda da təsbit olunması təklif olunub.

Məsələlərin müzakirəsində Elm və təhsil komitəsi sədrinin müavini Musa Qasımlı, komitənin üzvləri Anar İsgəndərov, Etibar Əliyev, Ceyhun Məmmədov, Tamam Cəfərova və Müşfiq Məmmədli çıxış edərək, müzakirə edilən qanun layihələri ilə bağlı fikirlərini bildiriblər, təkliflərini və suallarını səsləndiriblər.

Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev və Elm və Təhsil Nazirliyinin Hüquq şöbəsinin müdiri Səbuhi Mahmudov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər və suallarını cavablandırıblar.

Müzakirənin sonunda hər iki qanun layihəsi birinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Yüksək beynəlxalq etimadın növbəti nümunəsi

## Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası Bakıda keçirilən ən irimiqyaslı tədbirlərdən biri olacaq

*Əvvəli 1-ci səh.*

Azərbaycanın şəhərsalma sahəsində uğurları qlobal səviyyədə yüksək qiymətləndirilir

Ümumdünya Şəhərsalma Forumu (ÜŞF) 2001-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən dünyanın üzləşdiyi ən aktual problemlərdən biri olan sürətli urbanizasiya və onun şəhərlərə, iqtisadiyyatlara və iqlim dəyişikliyinə təsirini tənzimləmək məqsədilə təsis olunub. Şəhərsalma sahəsində ən mötəbər və genişmiqyaslı iştirakçılığa malik, iki ildən bir dünya şəhərlərindən birində keçirilən forum urbanizasiyanın bütün aspektləri ilə məşğul olan minlərlə iştirakçıya şəhərlərin necə qurulduğu, planlaşdırıldığı və idarə edildiyi barədə təcrübə və bilikləri



ni bölüşmək imkanı verir.

Forumun ilk sessiyası 2002-ci ildə Keniyanın paytaxtı Nayrobi şəhərində təşkil olunub. Sonrakı illərdə forumun sessiyaları Barselona, Rio-de-Janeyro, Vankuver, Əbu-Dabi, Kuala-Lumpur kimi tanınmış şəhərlərdə keçirilib. ÜŞF-in bu ilə planlaşdırılan 12-ci sessiyası noyabr ayında Misirin paytaxtı Qahirədə təşkil olunacaq.

Mühüm və beynəlxalq xarakterli tədbir olan ÜŞF-nin On Üçüncü Sessiyasının Bakıda keçirilməsi barədə qərar Azərbaycanda şəhərsalma sahəsində uğurların qlobal səviyyədə qiymətləndirilməsinin, habelə ölkəmizin yüksək nüfuzunun nümunəsidir. Eyni zamanda belə bir tədbirə evsahibliyi etmək Azərbaycanın öz nailiyyətlərini və şəhərsalma ilə bağlı təcrübəsini nümayiş etdirmək üçün əhəmiyyətli bir imkandır. Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Eyni zamanda işğaldan azad edilmiş ərazilərimizdə ermənilər tərəfindən dağıdılan şəhərlərimizin bərpası istiqamətində görülən, bu sahədə tətbiq olunan innovativ yeniliklər dünyanın diqqətini cəlb etməkdədir. 30 ilə yaxın davam edən işğal müddətində dağıdılmış şəhərlərimizin bərpası həm də Azərbaycanda şəhərsalma ilə bağlı ən müasir təcrübənin qazanılması ilə müşayiət olunur. Ona görə Azərbaycan şəhərsalma ilə bağlı qlobal gündəliyə daha böyük töhfələr verə bilər. Bu baxımdan, Bakıda keçiriləcək tədbir çərçivəsində həm Azərbaycan, həm də xarici ölkələrdən maraqlı tərəflər bir araya gələrək və geniş fikir mübadiləsi apararaq şəhərsalma ilə bağlı yeni bilik və təcrübə ilə paylaşmaq imkanını əldə edəcəklər.

Bütövlükdə, Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası Azərbaycanda keçiriləcək ən irimiqyaslı tədbirlərdən biri olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan və Türkiyə müdafiə nazirləri regional təhlükəsizlik məsələlərini müzakirə ediblər






Ankarada rəsmi səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Gülər ilə görüşüb.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdən əvvəl general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Ankarada Heydər Əliyev Parkını və Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbri ziyarət edib. Azərbaycan nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin parkdakı abidəsi və Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoyub, Ulu öndərlərin xatirələrinə ehtiram nümayiş etdirib. Sonra Türkiyənin Milli Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi olub, müdafiə nazirləri fəxri qarovulun önündən keçib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

General-polkovnik Z.Həsənov protokola uyğun olaraq şərəf kitabını imzalayıb. Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə qardaş ölkənin milli müdafiə naziri qonaqlara onları Türkiyədə görməkdən məmnunluğunu bildirib. Y.Gülər ölkələrimiz arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Müdafiə naziri türkiyəli həmkarına, göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. General-polkovnik Z.Həsənov Azərbaycan və Türkiyə dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyini vurğulayıb.

Azərbaycan Respublikasının Türkiyədəki səfiri Rəşad Məmmədovun da iştirak etdiyi görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Azərbaycan ilə Türkiyə arasındakı əməkdaşlıq bölgədəki sabitliyi təmin edən əsas amillərdəndir





Martın 6-da qardaş ölkədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürak ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin dostluq və qarşılıqlı inam üzərində qurulduğu qeyd edilib, ölkələrimiz arasında mövcud olan əməkdaşlığın bölgədəki sabitliyi təmin edən əsas amillərdən biri olduğu vurğulanıb. Sonda Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

# Azərbaycan və Türkiyə arasında hərbi sahədə əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparılıb



Türkiyədə rəsmi səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti qardaş ölkənin Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgün ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədovun da iştirak etdiyi görüşdə ölkələrimiz arasında hərbi-texniki sahədə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də birgə layihələr və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Bakıda 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunan tədbir keçirilib



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə əlaqədar tədbir keçirilib.









AZƏRTAC xəbər verir ki, əvvəlcə Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad edilib, məzarı önünə gül dəstələri qoyulub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə güllər düzülüb.

Milli Məclisin deputatlarının, dövlət və özəl sektor, qeyri-hökumət, beynəlxalq təşkilatların nümayəndələrinin, həmçinin respublikanın bütün regionlarından qadınların, görkəmli ictimai-siyasi xadimlərin iştirak etdikləri tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib.

Sonra Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Daha sonra Prezident İlham Əliyevin Azərbaycan qadınlarına ünvanladığı təbrik məktubu oxunub.

Məktubu Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva səsləndirib.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qadınların çalışdıqları hər sahədə uğur qazanmaları üçün ölkəmizdə bütün şəraitin yaradıldığını bildirib. Qeyd edib ki, dövlətimiz tərəfindən qadınlara xüsusi diqqət və qayğı göstərilir, onların əməyi yüksək qiymətləndirilir.

Azərbaycançılıq ideyası uğrunda sıx birləşən xalqımız Zəfər qazanaraq qalib adını tarixə yazdığını, yeni reallıqlar yaradan Azərbaycanın Cənubi Qafqazın və dünyada gedən qlobal proseslərin mühüm aktoruna çevrildiyini vurğulayan B.Muradova gərgin proseslər fonunda dövlətimizin başçısının ətrafında sıx birləşməyin vacibliyini qeyd edib.

Bahar Muradova bildirib ki, son 20 ildə dövlət idarəçiliyində gender amilinə diqqət artırılıb, qadın hüquqlarının təminatı, onların səlahiyyətləndirilməsi və iqtisadi cəhətdən gücləndirilməsi istiqamətində böyük irəliləyişlər əldə edilib. Ötən 20 il ərzində Azərbaycan qadınlarının üç qurultayı və bir forumu keçirilib.

Diqqətə çatdırılıb ki, ölkəmizdə ictimai həyatın bütün sahələrində qadınların rolu ildən-ilə daha da artır, ictimai, sosial-iqtisadi, mədəni, mənəvi sahələrdə qadınlar fəal iştirak edirlər.

Çıxışının sonunda Azərbaycan qadınlarını bir daha təbrik edən Bahar Muradova onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra dövlətimizin qadın siyasətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbir konsert proqramı ilə davam edib.

# MDB-də Əhalinin Sağlamlığının Qorunması sahəsində Əməkdaşlıq Konsepsiyasının aktuallaşdırılması planlaşdırılır

Müstəqil Dövlətlər Birliyinin (MDB) mənzil-qərargahında MDB-yə üzv dövlətlərin əhalinin sağlamlığının qorunması sahəsində əməkdaşlıq konsepsiyasına dəyişiklik layihələrinin yekunlaşdırılması üzrə ekspert qrupunun ilk iclası keçirilib.



AZƏRTAC MDB İcraiyyə Komitəsinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, ekspertlər konsepsiyanın ilk dəfə 2003-cü ildə - 20 ildən də çox əvvəl təsdiqləndiyini qeyd ediblər. Bu dövr ərzində tibdə həm bir sıra xəstəliklərin patogenezində, həm də dərman və peyvəndlərin işlənib hazırlanmasında yeni elmi kəşflər baş verib, hazırda bu sahədə müasir informasiya texnologiyaları və IT sistemləri fəal şəkildə tətbiq olunur, fərdi təbabət və yaxın illərdə tibbin inkişafını təyin edəcək digər hadisələr inkişaf edir.

Tibbin inkişaf tempini və bu sahədəki əsas tendensiyalardakı dəyişiklikləri nəzərə alan mütəxəssislər, Əhalinin Sağlamlığının Qorunması sahəsində Əməkdaşlıq Konsepsiyasının aktuallaşdırılması ilə bağlı daha çox işin görülməsinin zəruriliyini qeyd ediblər və bununla əlaqədar ekspert qrupunun növbəti iclasının bu ilin aprel ayında keçirilməsinə qərar verilib.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 115 QƏRAR Bakı şəhəri, 5 mart 2024-cü il

## Sərbəst olmayan istehlakçıya elektrik enerjisinin verilməsinin dayandırılmasına əsas verən müddətin müəyyən edilməsi haqqında

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Sərbəst olmayan istehlakçıya elektrik enerjisinin verilməsinin dayandırılmasına əsas verən müddət bir ay müəyyən edilsin.

2. Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 118 QƏRAR Bakı şəhəri, 5 mart 2024-cü il

## "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 782 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1-1-ci və 1-2-ci hissələr əlavə edilsin:

"1-1. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydanın 4.9-cu bəndinə uyğun olaraq inteqrasiya həyata keçirilənədək Dərman vasitələrinin dövlət reyestrinin məlumatları dəyişikliklər (dövlət qeydiyyatı müddətinin bitməsi, yenidən dövlət qeydiyyatına alınması, istehsalçının dəyişməsi, istehsal ölkəsinin dəyişməsi, yeni qablaşdırma miqdarı) göstərilməklə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən ayda bir dəfə elektron formada Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının Katibliyinə təqdim edilir.

1-2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezi-dentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası" üzrə:

2.1. 1-ci hissə üzrə:

2.1.1. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınaraq Dərman vasitələrinin dövlət reyestrinə daxil edilmiş dərman vasitələrinin (yalnız ixrac üçün Azərbaycan Respublikasında istehsal edilmiş dərman vasitələri istisna olmaqla) topdan və pərakəndə satış qiymətlərinin yuxarı həddi Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası (bundan sonra - Şura) tərəfindən tənzimlənir.";

2.1.2. 1.4-cü bəndə "qiymətlərlə" sözündən əvvəl "həddən yuxarı olmayan" sözləri əlavə edilsin;

2.2. 2.5-ci bənddə "vasitələrinin istehsalçıları və ya onların müvəkkil etdiyi şəxslər (bundan sonra - istehsalçılar)" sözləri "vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin sahibi (bundan sonra - ərizəçi)" sözləri ilə əvəz edilsin;

2.3. 3-cü hissə üzrə:

2.3.1. adına "qiymətlərinin" sözündən sonra "yuxarı həddinin" sözləri əlavə edilsin;

2.3.2. 3.1-ci bəndin birinci cümləsində "qiyməti" sözü "qiymətinin yuxarı həddi" sözləri ilə əvəz edilsin;

2.3.3. 3.2-ci bənddə "qiyməti" sözü "qiymətinin yuxarı həddi" sözləri ilə, "qiymətinə" sözü "qiymətinin yuxarı həddinə" sözləri ilə əvəz edilsin;

2.3.4. 3.4-cü bəndə "qiymətlərinin" sözündən sonra "yuxarı həddinin" sözləri əlavə edilsin;

2.3.5. 3.5-ci bəndin birinci cümləsində "qiymətləri" sözü "qiymətlərinin yuxarı həddi" sözləri ilə, ikinci cümləsində "qiymətlərlə" sözü "qiymətlərin yuxarı hədlərindən yüksək olmamaqla" sözləri ilə əvəz edilsin;

2.3.6. aşağıdakı məzmunda 3.6-cı bənd əlavə edilsin:

"3.6. Tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitəsinin yalnız topdansatış qiymətinin yuxarı həddi təsdiq edilir.";

2.4. 4-cü hissə üzrə:

2.4.1. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.1. Dərman vasitələri dövlət qeydiyyatına alındıqdan sonra 1 (bir) ay müddətində ərizəçilər tərəfindən qiymət tənzimlənməsi üçün Şuraya müraciət edilir. Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi üçün sənədlərin qəbulu və araşdırılması Katiblik tərəfindən həyata keçirilir.";

2.4.2. 4.2-ci bəndin birinci və ikinci cümlələrində "İstehsalçılar" sözü "Ərizəçilər" sözü ilə əvəz edilsin;

2.4.3. 4.3.1-ci yarımbənddə "Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınması haqqında sənədin (qeydiyyat vəsiqəsinin)" sözləri "dövlət qeydiyyatı haqqında qeydiyyat vəsiqəsinin" sözləri ilə əvəz edilsin;

2.4.4. 4.3.2-ci yarımbənd ləğv edilsin;

2.4.5. 4.3.3-cü yarımbənddə "həmin ölkələr üzrə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları tərəfindən Azərbaycan dilinə rəsmi tərcüməsi təsdiq edilən qiymət sənədləri" sözləri "Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq edilən sənədlər" sözləri ilə əvəz edilsin;

2.4.6. 4.3.5-ci yarımbənddən "notariat qaydasında təsdiq edilmiş" sözləri çıxarılsın;

2.4.7. 4.5-ci və 4.6-cı bəndlərdə "istehsalçıya" sözü "ərizəçiyə" sözü ilə əvəz edilsin;

2.4.8. 4.7-ci bəndin birinci cümləsində "istehsalçının" sözü "ərizəçinin" sözü ilə əvəz edilsin;

2.4.9. 4.9-cu, 4.11-ci və 4.12-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.9. Dərman vasitələri dövlət reyestrinin Şuranın informasiya sistemi ilə inteqrasiyası Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın 4-cü hissəsinə uyğun olaraq həyata keçirilir.

4.11. Bu Qaydanın 5.8-ci bəndi nəzərə alınmaqla, dərman vasitəsi dövlət qeydiyyatına alındıqdan sonra 1 (bir) ay müddətində ərizəçi tərəfindən qiymət tənzimlənməsi üçün müraciət edilmədiyi halda, Şura tərəfindən istinad ölkələri, habelə açıq informasiya mənbələri olan ölkələr üzrə məlumatlar əsasında araşdırma aparılmaqla, bazis qiymət müəyyən edilərək qiymət tənzimlənməsi həyata keçirilir.

4.12. "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 4.11-ci maddəsinin ikinci cümləsində qeyd olunan dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi dərman vasitələrinin istehsalçısı tərəfindən Şuraya müraciət edildikdə həyata keçirilir.";

2.5. 5-ci hissə üzrə:

2.5.1. 5.1-ci bəndə "üzrə" sözündən sonra "istehsal ölkəsi nəzərə alınmaqla" sözləri əlavə edilsin;

2.5.2. 5.2-ci bəndin birinci cümləsinə "rübdə" sözündən sonra "azı" sözü əlavə edilsin;

2.5.3. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.4. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən dərman vasitələri haqqında verilən məlumatlarda Şura tərəfindən təsdiq edilmiş qiymətlər əks olunur.";

2.5.4. 5.6-cı bənddə "istehsalçılar" sözü "ərizəçilər" sözü ilə, "Katibliyə yenidən bəyannamə təqdim" sözləri "Şuraya yenidən müraciət" sözləri ilə əvəz edilsin;

2.5.5. 5.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.8. Aşağıdakı dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin müəyyənləşdirilməsi bu Qaydanın 5.9 - 5.13-cü bəndlərinə uyğun olaraq həyata keçirilir:

5.8.1. əhalinin sağlamlığı baxımından xüsusi əhəmiyyət kəsb edən dərman vasitələri;

5.8.2. resept olmadan buraxılan dərman vasitələri.";

2.5.6. aşağıdakı məzmunda 5.9 - 5.14-cü bəndlər əlavə edilsin:

5.9. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi bu Qaydanın 5.11-ci bəndi nəzərə alınmaqla, ərizəçinin müraciətinə və ya bu Qaydanın 4.11-ci bəndinə əsasən həyata keçirilir.

5.10. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinə yenidən baxılması bu Qaydanın 5.11-ci bəndi nəzərə alınmaqla, ərizəçinin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müraciətinə əsasən həyata keçirilir.

5.11. Bu Qaydanın 5.8.1-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi və ya həmin qiymətlərə yenidən baxılması ilə əlaqədar Şura tərəfindən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin rəyləri alınır.

5.12. Bu Qaydanın 5.8.2-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi ərizəçinin müraciətinə və ya bu Qaydanın 4.11-ci bəndinə əsasən dərman vasitəsinin bazis qiymətinə onun 10 faizi və nəzarət markasının qiyməti əlavə olunmaqla həyata keçirilir.

5.13. Bu Qaydanın 5.8.2-ci yarımbəndində qeyd olunan dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinə yenidən baxılması bu Qaydanın 5.2-ci bəndinə uyğun olaraq həyata keçirilir.

5.14. Ərizəçilərin əsaslandırılmış müraciətinə əsasən tənzimlənmiş qiymətlərdə texniki xətalarla bağlı Şura tərəfindən düzəlişlər edilir. Bu düzəlişlər dərman vasitəsinin qiymətinin yenidən tənzimlənməsi hesab edilmir.";

2.6. 6-cı hissə üzrə:

2.6.1. 6.1-ci bənddə "üzərində dövlət tərəfindən tənzimlənmiş qiymətlər" sözləri "qablaşdırılmasının üzərində Şura tərəfindən təsdiq edilmiş yuxarı həddən yüksək olmamaqla, pərakəndə satış qiymətləri" sözləri ilə əvəz edilsin;

2.6.2. 6.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.2. Dərman vasitələrinin qablaşdırılmasının üzərində pərakəndə satış qiymətlərinin göstərilməsi aptek təşkilatları tərəfindən təmin edilir. Dərman vasitələrinin qiymətləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş üsullarla göstərilir.";

2.6.3. 6.3-1-ci bəndə "məlumatların" sözündən əvvəl "zəruri" sözü əlavə edilsin və həmin bənddən "vaxtında və ya" sözləri çıxarılsın;

2.7. 7-ci hissə və Qeyd hissəsi ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 121 QƏRAR Bakı şəhəri, 5 mart 2024-cü il

## "Azərbaycan Respublikası Prezidentinin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 999-VQD nömrəli Qanununun tətbiqi və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2018-ci il 20 fevral tarixli 1838 nömrəli, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 982-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 6 mart tarixli 1867 nömrəli, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1154-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 11 iyun tarixli 138 nömrəli, "Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydalarının təsdiq edilməsi haqqında" 2018-ci il 28 dekabr tarixli 448 nömrəli və "Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2019-cu il 19 mart tarixli 597 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2388 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 999-VQD nömrəli Qanununun tətbiqi və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2018-ci il 20 fevral tarixli 1838 nömrəli, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 982-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 6 mart tarixli 1867 nömrəli, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1154-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 11 iyun tarixli 138 nömrəli, "Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 28 dekabr tarixli 448 nömrəli və "Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2019-cu il 19 mart tarixli 597 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2388 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Tikinti obyektlərinin istismarına icazənin formaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 sentyabr tarixli 302 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1126 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 2 dekabr tarixli 429 nömrəli Qərarı) 4-cü hissəsi ləğv edilsin.

2. "Bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydası və bununla bağlı ödənişin miqdarı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 26 sentyabr tarixli 417 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1945 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

3. "Torpaq sahəsindən istifadənin iqtisadi əsaslandırılmasının Forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 noyabr tarixli 512 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2459 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

4. "Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin göstərdiyi xidmətlərə görə ödənilən xidmət haqqı məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 3 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 61 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 122 QƏRAR Bakı şəhəri, 6 mart 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət büdcəsindən maliyyə yardımı və ya investisiyayönümlü təxsisat alan, habelə dövlət zəmanəti ilə alınmış borc da daxil olmaqla, dövlət büdcəsi qarşısında öhdəliyi olan hüquqi şəxslərin xarici və ya daxili borclanmasını tənzimləyən Qaydalar"ın təsdiq edilməsi barədə" 2010-cu il 28 iyul tarixli 143 nömrəli, "Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2011-ci il 11 noyabr tarixli 184 nömrəli və "Vergi ödəyicilərində nağd pul vəsaitinin uçotu və kassa əməliyyatlarının aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 30 sentyabr tarixli 365 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət büdcəsindən maliyyə yardımı və ya investisiyayönümlü təxsisat alan, habelə dövlət zəmanəti ilə alınmış borc da daxil olmaqla, dövlət büdcəsi qarşısında öhdəliyi olan hüquqi şəxslərin xarici və ya daxili borclanmasını tənzimləyən Qaydalar"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 iyul tarixli 143 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 708 (Cild I) 2-ci hissəsinin birinci abzasından "və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 noyabr tarixli 184 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1066 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2-ci bənddə "bütün banklar, bank olmayan kredit təşkilatları" sözləri "nəzarət etdiyi bütün subyektlər" sözləri ilə əvəz edilsin;

2.2. 4.2-ci bənddə "Azərbaycan Respublikasının "Banklar haqqında" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanunlarına" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa, habelə maliyyə bazarlarını tənzimləyən digər qanunlara" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 sentyabr tarixli 365 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1237 (Cild I) ilə təsdiq edilmiş "Vergi ödəyicilərində nağd pul vəsaitinin uçotu və kassa əməliyyatlarının aparılması Qaydası"nın 1.2-ci bəndində "və kredit təşkilatlarına" sözləri ", kredit təşkilatlarına və qanuna müvafiq olaraq ödəniş xidmətlərini həyata keçirən şəxslərə" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Sülh prosesinin əngəllənməsi Ermənistanın və havadarlarının növbəti məğlubiyyəti olacaq



"Azərbaycan dövləti və onun ali siyasi rəhbərliyi regionumuzda ikitərəfli danışıqlar formatı çərçivəsində uzunmüddətli və davamlı sülhün bərqərar olması üçün bütün səylərini səfərbər edib. Lakin bu reallıqlar fonunda sülh prosesinə mane olan ciddi ideoloji təzyiqlər müşahidə edilir. Belə təzyiq elementlərinin mənbələri isə müxtəlifdir".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat bildirib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri nəticəsində öz suverenliyini və ərazi bütövlüyünü tam təmin edib. Yəni bu gün artıq Qarabağ problemi yoxdur. Mövcud problem Azərbaycan-Ermənistan münasibətlərinin bərpası, iki dövlətin sərhədlərinin müəyyən edilməsi, kommunikasiyaların açılması, Zəngəzur dəhlizinin işə salınması və sair məsələlərlə bağlıdır. Amma Azərbaycanın yaratdığı yeni reallıqlar sülh müqaviləsinin imzalanmasına imkan yaradır.

Deputatın sözlərinə görə, bu vəziyyətdən duyuq düşən sülhpozucular əl-ayağa düşüblər. Misal üçün, Fransa son dövrlər ölkəmizə qarşı qərəzli davranışlarını intensivləşdirib. Gah Almaniyanın, gah Avropa Parlamentində oturan islamofob və rasist nümayəndələrin əli ilə Azərbaycana qara yaxmağa, şərböhtan yağdırmağa çalışır. Bununla da erməniləri revanşizmə həvəsləndirərək özünün Cənubi Qafqazda hərbi mövcudluğuna nail olmaq istəyir.

"Bundan başqa, sülhə əngəl törədən təzyiq elementləri həm də Rusiyanın əsas təbliğatçılarından biri olan Marqarita Simonyandan gəlir. O, Rusiyada keçirilən Dünya Gənclər Festivalında Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına mane olan bəyanatlar səsləndirib. Elə fikirlər bildirib ki, erməni gəncləri ayağa qalxsınlar və yenidən Qarabağ xülyasına vararaq, revanşizm dalğası çərçivəsində sülhün əleyhinə çıxsınlar. Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasını istəməyənlər elə çıxışlar edirlər ki, İrəvan Azərbaycana qarşı yenidən ərazi iddiaları qaldırsın və bunun reallaşması istiqamətində hərəkət etsin. Marqarita Simonyan kimi sülhpozucu fəaliyyətlə məşğul olanların əsas niyyəti budur", - deyə müsahibimiz əlavə edib.

Elman Nəsirov söyləyib ki, bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən əsas tərəfdaşlardan biridir: "Ona görə də Qərbin bir sıra ölkələri addım atarkən bu reallığı unutmamalı, tərəfdaşlıq münasibətlərinə xələl gətirən, siyasi-iqtisadi əməkdaşlığımıza kölgə salan davranışlar sərgiləməməlidirlər. Ermənistanın siyasi rəhbərliyi də sülhə əngəl olan addımları ilə gündəmə gələnlərlə aparılan danışıqlarda bu məsələləri dilə gətirməli və bu kimi addımların qarşısını almalıdır. Çünki bu gün sülh müqaviləsini imzalamaq Azərbaycandan çox Ermənistanın özünə lazımdır. Nəzərə almaq lazımdır ki, məğlub tərəf Ermənistandır, Azərbaycanın müharibədən dərhal sonra sülh sazişi təklifi isə dövlət və xalq olaraq humanistliyimizin göstəricisidir".

Deputat yekunda vurğulayıb ki, Cənubi Qafqazda nifaq və nifrət toxumu səpənlər heç nə əldə etməyəcəklər: "Belə qüvvələrin ağlasığmaz davranışları heç bir halda regiona sülh və əmin-amanlıq gətirmir, əksinə, qarşıdurma mühitinin genişlənməsinə səbəb olur. Bu isə əslində Ermənistanın və havadarlarının növbəti məğlubiyyəti deməkdir".

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

## Haqlı və güclü olan Azərbaycandır

### Ermənistanın buqələmunluğunun heç bir faydası olmayacaq

Ermənistanın və ona havadarlıq edən bəzi Qərb dairələrinin, eləcə də "xristian klubu"na çevrilən Avropa Parlamentinin ikili oyunları, məkrli planları tükənmək bilmir. Bütün cəhdlərində, bütün çirkinliklərində hədəf ərazi bütövlüyünü, suverenliyini öz gücünə təmin edən Azərbaycandır.



44 günlük İkinci Qarabağ müharibəsinin başa çatmasından ötən 3 ildən artıq zamanda Ermənistan bütün danışıqlarda sülhə hazır olduğunu bildirsə də, əməldə köhnə peşəsini davam etdirir. İşğal dövründə 30 il Azərbaycanın sülh istəyinə qarşı heç bir reaksiya verməyən beynəlxalq təşkilatlar, bəzi böyük dövlətlər indi Ermənistanın xeyrinə hansısa iş görməyə çalışırlar. 30 il ərzində işğalçıya, uşaq qatillərinə qarşı heç bir sanksiya tətbiq etməyən Avropa təşkilatları, 2020-ci ilin noyabrından Azərbaycanı hədəfə alıblar. Bütün istiqamətlərdə qarayaxma, iftira və böhtan kampaniyası apararaq erməni lobbisinə yarınmaq istəyirlər.

Qəbul etdikləri qərəzli bəyanatların, hansısa uydurma qərarların Azərbaycana zərrə qədər də təsir göstərmədiyini gördükdə isə son həftələrdə gücü media orqanlarına ötürüblər. İndi də Qərb mediası yeni iftiralar, uydurmalarla beynəlxalq ictimaiyyəti çaşdırmaq istəyir. Dərc edilən məqalələrin hər birinin süjet xətti eynidir - guya Azərbaycan Ermənistana qarşı hücuma hazırlaşır və Qafqazda yeni savaş ocağının yaranma təhlükəsi var.

Amma, özləri də yaxşı anlayırlar ki, bu, sadəcə Azərbaycanı təxribata çəkmək məqsədi güdür. Çünki Azərbaycanın yeganə məqsədi sülh müqaviləsinin bağlanması, regionda təhlükəsizliyin bərqərar olunmasıdır. Əgər Azərbaycanın Ermənistana qarşı ərazi iddiası olsaydı, ya 44 günlük savaşda, ya da 23 saatlıq antiterror tədbirlərində bunu reallaşdıra bilərdi. Çünki Azərbaycan Ordusunun qarşısında dayana biləcək güc yox idi. Elə indi də yoxdur!

Fransanın bu ölkəni silahlandırması, ordusundan bir neçə hərbçisini Hayastana təlim adı ilə gətirməsi o demək deyil ki, Azərbaycanın nədənsə çəkinəcəyi var. Əslində, Azərbaycan Ordusu bu gün 2020-ci ildəkindən qat-qat güclüdür. Həm yüksək döyüş əzmli şəxsi heyət, həm də müasir hərbi texnika, silah-sursat baxımından...

Əgər Azərbaycan sülh istəməsəydi, onun şərtlərini də hazırlayıb Ermənistana təqdim etməzdi.

Əgər Azərbaycan savaş istəsəydi, işğaldan azad etdiyi əraziləri bərpa edib yurdundan-yuvasından didərgin düşən vətəndaşlarını yenidən atəş altına salmazdı.

Qalib Ali Baş Komandan kimi İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan sülh prosesinə sadiqdir. Məhz Azərbaycan İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış edib. Lakin məğlub Ermənistan son zamanlarda sadəcə olaraq dondan-dona girməklə oyunpozanlıq edir.

Bunun səbəbi təbii ki, bəllidir. Hayastan rəhbərliyi hər zaman buyruq qulu olduğu Rusiyadan üz çevirərək Qərbin diktəsi altına düşdüyünü göstərir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı fəaliyyətini "dondurması" isə vəziyyəti daha da gərginləşdirib. Bunu artıq ölkə əhalisi də anlayır və Hayastanın yeni təhlükə ilə üz-üzə qaldığını vurğulayır.

Elə dünən Ermənistanın sabiq prezidenti Robert Koçaryanın müxalif "Ermənistan" parlament fraksiyasının katibi Artsvik Minasyan jurnalistlər üçün təşkil olunan brifinqdə deyib ki, Hayastan hakimiyyətinin Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə bağlı siyasəti respublikanın təhlükəsizlik sisteminin sıradan çıxmasına və fəlakətə gətirib çıxaracaq: "Ermənistanın təhlükəsizliyi elə bir vəziyyətdədir ki, hər an bütün tərəflərdən bizə hücum edilə bilər. Onlar bizim müttəfiqimizi düşmənə çevirdilər. Bu, rüsvayçılıqdır", - deyə Artsvik Minasyan bildirib. Onun sözlərinə görə, İrəvan mövcud təhlükəsizlik sistemini daha effektiv etmək üçün yol tapmalı, tərəfdaşlarla "ultimatum dilində" danışmamalıdır.

Göründüyü kimi, sülh müqaviləsinin imzalanma tarixinin uzanmasının daha çox təhlükəli olduğunu İrəvanda artıq yaxşı başa düşürlər. Amma bəzi dairələr hesab edirlər ki, onların arxasında dayananların Azərbaycana təsir etmək mexanizmləri hələ bitməyib və bu təzyiqlər nəticəsində sülh müqaviləsi imzalanarkən Ermənistan üçün daha uyğun şərait əldə etmək olar. Lakin Ermənistan və onun havadarları unudurlar ki, vaxt keçdikcə Azərbaycanın şərtləri də dəyişir.

Böyük erməni diasporuna malik Fransa isə Ermənistana dəstəyini davam etdirməklə yanaşı, Azərbaycana qarşı qarayaxma kampaniyasını da davam etdirir. Prezident Emmanuel Makron hökuməti açıq-aşkar ermənipərəst mövqe sərgiləyərək, Fransanı Hayastanın faşizm siyasətinin əsirinə çevirib. İndi də Ermənistanın Fransa vassallığı dövrü başlayıb.

Əminliklə deyə bilərik ki, istənilən buqələmunluğun Ermənistan üçün heç bir faydası olmayacaq. Regionda diktəni edən tərəf Azərbaycandır. Çünki Azərbaycan həm haqlı, həm də güclü olan tərəfdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycan haqq yolundadır



"Son vaxtlar ölkəmizə qarşı qərəzli mövqe tutanların əsas dərdi Azərbaycanın Vətən müharibəsində qələbəsi, ötən ilin sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirləri nəticəsində suverenliyini və ərazi bütövlüyünü tam bərpa etməsidir".

Qərbin bəzi dairələri, eləcə də Avropa Parlamentində oturan islamofob, azərbaycanofob və rasist nümayəndələr bu reallıqla barışmaq istəmir, ermənilərin müdafiəsinə qalxırlar".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, Qərbin bəzi siyasi dairələri müstəqil xarici siyasət yürüdən Azərbaycanda gedən proseslərə müdaxilə etməyə, nəyin bahasına olur-olsun hadisələrin iştirakçısına çevrilməyə çalışırlar: "Onlar Ermənistanı özlərinə tərəfdaş kimi göstərir və ölkəmizə qarşı qərəz nümayiş etdirirlər. Lakin bu, heç də gözlənilməz deyil. Çünki AP-də qəbul edilən qətnamənin müzakirəsi zamanı Azərbaycanın əleyhinə çıxan deputatlar bundan əvvəl də Avropa Parlamentində eyni mövqedən çıxış ediblər. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Almaniya biznes nümayəndələrini qəbul edərkən bu iyrənc oyunları ifşa etmişdi".

Deputatın sözlərinə görə, bütün bunlara baxmayaraq, Avropanın bir sıra ölkələrindən gələn nümayəndə heyətləri Azərbaycan Prezidenti ilə keçirilən yüksəksəviyyəli görüşlərdə Azərbaycanın etibarlı tərəfdaş olduğunu vurğulayırlar. Onlar başa düşürlər ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rola malikdir. Deməli, Avroparlamentin belə qərəzli qətnamə qəbul etməsinin kökündə ikili standartlar dayanır. Riyakar qüvvələrin əsas məqsədi Rusiyanı regiondan uzaqlaşdıraraq Cənubi Qafqazda özlərinə yer tutmaqdır. Çünki onlar Rusiyanın regiondakı mövcudluğundan ciddi narahatlıq keçirirlər. Bu fakt Ermənistandan istifadə edib öz siyasətlərini Cənubi Qafqazda həyata keçirmək istəyənlərin məkrli planlarını reallaşdırmağa mane olur.

"Azərbaycana ağlasığmaz böhtanlar atanlar indi də bizi etnik təmizləmədə ittiham edirlər. Əslində isə bütün dünyaya məlumdur ki, ermənilər Qarabağ ərazisini könüllü olaraq tərk ediblər. Bu isə Avropaya sərf etmir. Onlar nəyin bahasına olursa-olsun, vaxtilə Azərbaycan torpaqlarında qazandıqları gəlirləri bərpa etmək üçün hər bir vasitəyə əl atırlar", - deyə müsahibimiz qeyd edib.

Arzu Nağıyev AP-də qəbul edilən qətnamənin heç bir əhəmiyyət kəsb etmədiyini də vurğulayıb. Deputat deyib ki, həmin kağız parçasında yazılanlar təkcə ölkəmiz üçün yox, bütövlükdə Avropa İttifaqı və ona üzv olan dövlətlər üçün də absurd və yalandır: "Sadəcə olaraq Avropa Parlamentinin yeni seçkilərə hazırlaşdığı ərəfədə bəzi deputatların mandat almaq üçün tək əlacı ermənilərin müdafiəsinə qalxmaqdır. Həmin deputatların maliyyələşməsi erməni lobbisi tərəfindən həyata keçirildiyinə görə onlar Azərbaycanın əleyhinə çıxış etməlidirlər. Bu maliyyələşmənin arxasında isə Brüsseldə yaşayan erməniəsilli Kaspar Karapetyanın dayandığı bildirilir. Artıq faktlarla sübuta yetirilib ki, AP deputatlarına verilən rüşvətin mənbəyi erməni Karapetyandır".

Deputat yekunda vurğulayıb ki, Azərbaycan Avropa Parlamenti qarşısında heç bir öhdəlik daşımır. Ona görə bu qurumda qəbul edilən qətnamələrin məzmunundan asılı olmayaraq, bizim üçün heç bir əhəmiyyəti yoxdur. Azərbaycan haqq yolundadır və onu bu yoldan heç kim döndərə bilməz. Erməni lobbisinin puluna möhtac olanların ölkəmiz əleyhinə çağırışlara qoşulması bizim üçün narahatlıq yaratmır.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Fransaya Cənubi Qafqazda yer yoxdur

Normal ağlı olan kəs və ya dövlət bir dəfə səhv etdisə, gərək ikinci dəfə onu təkrarlamasın. Çünki ikinci dəfə eyni səhvi təkrar etmək bağışlanmır. Hazırda Ermənistan ikinci dəfə eyni səhvi təkrar etmək istəyir. Ölkəmiz və xalqımız üçün böyük uğurla yekunlaşan İkinci Qarabağ müharibəsində məğlub olan Ermənistan yenə də "revanşizm" xəstəliyinə tutulub. Ha "müalicə" olunsa da, bu azardan qurtula bilmir. Çünki tələbləri qarşısında baş əydiyi Fransa ona "müalicə" kursunun başa çatmasına imkan vermir.




2020-ci ilin 10 noyabr tarixində kapitulyasiya aktına imza atmaqla özü də məğlubiyyətini etiraf etmiş Ermənistan yenidən "revanşizmə" hazırlaşır. Görünür Ermənistan 44 günlük Vətən müharibəsində, həmçinin ondan sonrakı antiterror tədbirlərində aldığı məğlubiyyətdən, verdiyi itkilərdən düzgün nəticə çıxarmayıb. Əgər düzgün nəticə çıxarsaydı, işğalçılıq siyasətindən əl çəkərdi, yenidən silahlanmazdı.

Müxtəlif mətbuat orqanlarında xarici ölkələrdən silah alması və almaq istəyi ilə bağlı yayılan məlumatlar doğrudan da, Ermənistanın yenidən revanşizmə can atdığını bir daha təsdiqləyir. Baş nazir Nikol Paşinyan hökumətin iclasında bildirib ki, bəzi ölkələr, o cümlədən müttəfiqləri öncədən sifariş alsa da, yüz milyonlarla dollar dəyərində silahı tədarük etməkdən imtina ediblər. Görünən odur ki, Ermənistan hakimiyyətinin revanşizm üçün başlatdığı "hazırlıq kampaniyası" istədiyi formada getmir. Bunun isə obyektiv və subyektiv səbəbləri mövcuddur. Paşinyan bir əlində iki qarpız tutmağa çalışır. Eyni anda həm Fransaya, həm də digər ölkələrə sığınmaq istəyir. Hadisələrin gedişi göstərir ki, gedəcəyini müəyyənləşdirə bilməyən Ermənistan qeyri-müəyyənlik yolundadır.

Son hadisələr göstərir ki, Ermənistan yavaş-yavaş Rusiyaya arxa çevirir. Görünür ki, Fransanın verdiyi vədlər daha cəlbedicidir. Makron yağlı vədləri ilə Paşinyanı aldada bilir. Bir müddət əvvəl Fransa Ukrayna cəbhəsində bir işə yaramayan, texniki göstəriciləri müharibə zərbələrinə tab gətirməyən zirehli maşınlarını Ermənistana göndərmişdi. Təkcə yerli deyil, xarici hərbi ekspertlər də bu döyüş maşınlarının həqiqətən zəif olduğunu qeyd edirdilər. Ekspertlərin dedikləri çox inandırıcı idi. Çünki əgər bu zirehli texnikaların döyüş qabiliyyəti yüksək olsaydı, onu ukraynalı hərbçilər geri qaytarmazdılar. Ukraynadan fərqli olaraq Ermənistan bu silahları çox sevinə-sevinə alır. Ermənilərdən daha çox erməni kimi addımlar atan Fransa prezidenti Emmanuel Makron arsız-arsız Ermənistana silah tədarükünü davam etdirəcəklərini söyləyib. Bu da Makronun Ermənistana verdiyi növbəti şirin vəddir. Belə götürəndə, Fransa Ermənistanla lap uşaq kimi davranır. Ermənistan bir az ağlayıb-sızlayan kimi Fransa onun qucağına beş-on ədəd maşın atır ki, bir az oraburasına baxıb başı qarışsın. Ermənistan da Fransanın verdiyi bu texnikalarla başını qatır.

Əslində isə Fransanın Ermənistanı silahlandırmaqda əsas mədsədi Cənubi Qafqazda möhkəmlənməkdir. Ermənistanın əli ilə Rusyanın bazalarını buradan çıxarıb öz qüvvələrini orada yerləşdirməkdir. Təbiidir ki, bütün bunlar Fransanın xam xəyallarından başqa bir şey deyil. Son davranışlarına dərindən fikir verəndə aydın görünür ki, Ermənistan milli təhlükəsizlik maraqlarını təmin etməyə qadir olmayan ölkədir. Rusiya tərəfindən süni yaradılmış bu qondarma "dövlət" hazırda özünü müdafiə etməkdə aciz duruma düşüb. Buna görə də gah Fransaya, gah da başqa Qərb ölkələrinə üz tutub yalvar-yaxar edir. Bu da ondan qaynaqlanır ki, erməni əxlaqı həmişə başqalarına sığınmaq "ənənə"si üzərində formalaşıb.

Təbii ki, başqalarının himayəsinə vərdişli olan Ermənistan nəsə bir dara düşən kimi dərhal isterik şəkildə yeni "təhlükəsizlik çətiri" axtarır. Rəsmi İrəvan hətta Fransanın "təhlükəsizlik çətiri"nin altına girə bilsə belə, bu, Ermənistanı qoruya biləcək müdafiə sistemi deyil. Çünki Fransanın Ermənistanı müdafiə etmək imkanları rəsmi İrəvanın ümidlərini doğruldacaq səviyyədə deyil. Və üstəlik, Fransa özü də hazırda müəyyən təhlükəsizlik problemləri ilə üzləşib. Neçə vaxtdır ki, bu ölkədə etirazlar səngimək bilmir. Digər bir tərəfdən də Afrikadan qovulan Fransa hazırda beynəlxalq məkanda nüfuzunu və imicini sürətlə itirir. Görünür rəsmi Paris itirdiyi beynəlxalq imicini məhz Cənubi Qafqazda bərpa edə biləcəyinə ümid bəsləyir. Bu məqsədlə əsas dayaq nöqtəsi kimi məhz Ermənistanı seçir. Tələm-tələsik Ermənistana yerləşməyə can atan Fransa rəsmi İrəvanı yerinə yetirə bilməyəcəyi vədlərlə aldadır.

Fransa Ermənistanı intensiv şəkildə silahlandırır. Əvəzində isə rəsmi İrəvandan Azərbaycana qarşı hərbi təxribatlar törətməyi və Qafqazda yeni savaşa nail olmağı tələb edir. Ancaq bu silahlanmanın Ermənistana Qafqaz savaşında hərbi qələbə qazandıra biləcəyinə yalnız sadəlövhlər inana bilər.

Fransanın hesabına yenə də revanşizmə can atan Ermənistanı sonda yalnız və yalnız məğlubiyyət gözləyir. Parisin gurultulu bəyanatlarından bu günə qədər İrəvan faktiki olaraq heç nə qazanmayıb. Heç sabah da qazanmayacaq. Çünki Fransanın yalan vədləri Ermənistanı regional istisadi layihələrdən kənarda qoyur. Onu uçuruma doğru aparır. Fransanın təhrikləri sülh müqaviləsinin bağlanmasını da uzadır. Hadisələrin gedişindən aydın görünən odur ki, Fransa Ermənistan vasitəsi ilə Cənubi Qafqazda çirkin oyun qurmağa çalışır. Amma Fransa heç vaxt məqsədlərinə çatmayacaq. Rəsmi Parisin qurmaq istədiyi çirkin oyunların qarşısı Azərbaycan və Türkiyə tərəfindən qətiyyətlə alınır və alınacaq. Hər şeyə hakim olan zaman və hadisələrin gedişatı göstərir ki, Fransaya Cənubi Qafqazda yer yoxdu.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***




# Azərbaycanın kifayət qədər enerji ehtiyatları var

## Avropa ölkələri bu reallığı nəzərə almalıdırlar

**"Azərbaycan hazırda çoxşaxəli enerji siyasəti yürütməklə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Ötən illər ərzində ölkəmiz Avropa bazarında mühüm neft təchizatçısı kimi etibarlı tərəfdaşa çevrilib".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, Azərbaycan regionda ən nəhəng qaz marşrutlarının yaradılmasına nail olub. TANAP və TAP kəmərlərinin qısa müddət ərzində başa çatdırılması böyük iradənin nəticəsi idi. 2020-ci ilin sonundan etibarən ölkəmiz Avropa İttifaqına qaz ixracını təmin etməkdədir və hər il qaz ixracı artır. Ötən il Azərbaycan Aİ ölkələrinə 12 milyard kubmetr qaz nəql edib ki, bu da kifayət qədər böyük göstəricidir, ixracın yarısı deməkdir.

Aydın Hüseynov qeyd edib ki, Azərbaycan hazırda Avropa bazarına enerji ixracının çoxşaxəliliyini təmin etmək üçün müzakirələr aparır. İxracın yaxın illərdə 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Azərbaycanın qaz ehtiyatları zəngindir. Ölkəmizdə kifayət qədər dayanıqlı enerji mənbələri mövcuddur. Bunu nəzərə alan Aİ Azərbaycandan daha çox qaz almaq istəyir. "Ölkəmizin təsdiq edilmiş qaz ehtiyatlarının həcmi 2,6 trilyon kubmetrdir. Belə həcm öz istehlakımız və ixrac üçün ən azı 100 il kifayət edər. Hazırda yeni yataqların kəşf edilməsi ilə bağlı işlər davam etdirilir. Bu, xarici şirkətlərin və Avropa ölkələrinin də marağının artmasına səbəb olmaqdadır. Avropa ölkələri mövcud perspektiv qaz mənbələrini nəzərə alaraq Azərbaycanla əməkdaşlığı genişləndirməyə çalışırlar. "Şahdəniz" yatağı ilə yanaşı, "Babək", "Naxçıvan", "Zəfər-Məşəl", "Şəfəq-Asiman" perspektiv strukturlarında böyük ehtiyatlar var", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, proqnozlara əsasən, 2025-2030-ci illərdə ölkəmizin qaz istehsalı 40 faiz artacaq və Avropaya qaz nəql edən TAP kəmərinin illik gücü 20 milyard kubmetrə çatacaq. Gələcəkdə qaz təchizatı coğrafiyasının Avropada Balkanlara və Şərqi Avropanın bir sıra digər ölkələrinə qədər genişləndirilməsi nəzərdə tutulur.

Aydın Hüseynov Azərbaycanın Aİ ilə enerjinin digər sahələrində, o cümlədən alternativ və bərpaolunan enerji layihələrində yaxından əməkdaşlıq planlarının da gerçəkləşməsi üçün səmərəli müzakirələrin aparıldığını bildirib: "Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3000 meqavat, günəş enerjisi üzrə 23000 meqavat, bioenerji potensialı 380 meqavat, dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir".

Deputat qeyd edib ki, bu baxımdan Aİ bu həcmdə resursların istehsalı və nəqlində Azərbaycanla əməkdaşlığa xüsusi önəm verir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




# COP29-a evsahibliyi etmək Azərbaycanın təməl haqqıdır

## İndiyəcən dünyada elə bir qlobal ekoloji təşəbbüs olmayıb ki, ölkəmiz ona qoşulmasın

**İqlim dəyişikliyinin fəsadları günümüzün ən böyük ekoloji problemidir və dünyanın diqqəti həmin problemin həllinə yönəlib.**

2022-ci ilin iyununda ABŞ və Avropa İttifaqı (Aİ) "Qlobal metan öhdəliyi enerji yol xəritəsi" ilə bağlı verdikləri ortaq bəyanatda bildirdilər ki, qlobal istiləşməni 1,5 dərəcə selsi azaltmaq və yaxın gələcəkdə iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün dünyanın qlobal enerji sektoru karbonsuzlaşdırılmalı, qısa müddətdə metan emissiyası sürətlə azaldılmalıdır.

Bu məsələ çərçivəsində Böyük İqtisadiyyatlar Forumunda ABŞ, Aİ və 11 ölkənin iştirakı ilə yeni bir öhdəlik götürülüb - benzin və qaz sektorunda metan emissiyasının azaldılması, 2030-cu ilə qədər rutin emissiyaların dayandırılması vəd edilib. Argentina, Kanada, Danimarka, Misir, Almaniya, İtaliya, Yaponiya, Meksika, Nigeriya, Norveç və Oman da bu öhdəliyə qoşulub. Qeyd edək ki, həmin öhdəliyin yerinə yetirilməsinə 59 milyon dollarlıq investisiya qoyulacağı nəzərdə tutulur.

Bu ilin fevralında Azərbaycan da qlobal metan emissiyalarının azaldılması üzrə dövlətlərin könüllü olaraq öz üzərinə götürdüyü öhdəlikləri nəzərdə tutan "Qlobal Metan Vədi" təşəbbüsünə qoşulduğunu elan edib. Azərbaycanın 2030-cu ilə qədər qlobal metan emissiyalarının ən azı 30 faiz həcmində azaldılmasını hədəfləyən birgə beynəlxalq səylərə qoşulmağa hazır olduğu bildirilir.

Məlumat üçün qeyd edək ki, "Qlobal Metan Vədi" Birləşmiş Krallığın Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 26-cı sessiyasında (COP26) ABŞ və Aİ tərəfindən metan emissiyalarının azaldılması ilə bağlı qlobal öhdəlik kimi irəli sürülmüş təşəbbüsdür. Hazırda 155 ölkə bu beynəlxalq öhdəliyə qoşulduğunu elan edib və qlobal metan çirklənməsinin təxminən yarısı həmin ölkələrin payına düşür.

Azərbaycan qlobal iqlim dəyişikliyi ilə mübarizədə də fəallığı ilə seçilir. Bununla bağlı yayılan məlumatda bildirilir ki, ölkəmizin "Qlobal Metan Vədi"nə qoşulması onun dünyada etibarlı "yaşıl enerji" tərəfdaşı kimi mövqeyini daha da gücləndirir. Beynəlxalq birliyin məsuliyyətli üzvü kimi Azərbaycan hər zaman qlobal iqlim siyasəti ilə bağlı dövlətlərin apardığı birgə fəaliyyətə əhəmiyyətli dəstək və töhfə verir, "yaşıl hədəflər" uğrunda daha çox səy göstərilməsini təşviq edir. Üzərinə götürdüyü öhdəliklərə sadiqlik, Prezident İlham Əliyev tərəfindən elan edilmiş "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində uğurlu fəaliyyət və yeni təşəbbüslər Azərbaycanı dünyada qlobal iqlim siyasətinə böyük töhfə verən uğurlu nümunə kimi tanıdır. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyinin ölkəmizə həvalə edilməsi də bu fəaliyyətə verilən beynəlxalq qiymətin və göstərilən etimadın açıq təzahürüdür.

Amma Azərbaycanın bu üstünlüyünə kölgə salmağa çalışan qara qüvvələr də var. COP29-un başlanmasına təxminən 8 ay qalmasına baxmayaraq, həmin təxribatçı qüvvələr qarayaxma kampaniyasına başlayıblar. Onlar, əsasən, ölkəmizi neft sektoru ilə "vurmağa" cəhd edirlər. Lakin bu təxribat baş tutmayacaq. Çünki ölkəmizdə neft emalı sahəsində bütün ekoloji qaydalara tam əməl olunur. Dövlət Neft Şirkəti öz ekoloji siyasətində Xəzər dənizinin gələcək nəsillər üçün qorunub saxlanılmasını prioritet vəzifə hesab edir. Xəzər dənizində fəaliyyət göstərən beynəlxalq konsorsiumun neft çıxardığı "Azəri-Çıraq-Günəşli" yataqları, dəniz boru kəmərləri sistemi və Səngəçal terminalı üçün "Neft dağılmaları üzrə fəaliyyət planları"na uyğun real texniki sistem formalaşdırılıb. Neft dağılmalarının qarşısının alınması, tullantıların yığılması məqsədilə Xəzər dənizində fəaliyyət göstərən Rusiya, Qazaxıstan, Türkmənistan şirkətləri də müvafiq planlara və tədbirlər sistemlərinə malikdirlər.

Bunlara baxmayaraq, həmin qüvvələr yenə də bəhanələr axtarırlar. Götürək Fransanı. İş o yerə çatıb ki, bu yaxınlarda Paris merinin təşəbbüsü ilə imza toplanmasına başlanılıb. Məqsəd COP29-un Azərbaycanda keçirilməməsinə nail olmaqdır. Mer bu hərəkətini onunla əsaslandırır ki, guya Azərbaycan lokal xarakterli antiterror tədbirlərində ermənilərin hüququnu pozub. Halbuki Azərbaycan beynəlxalq hüquq normaları daxilində özünün ərazi bütövlüyünü və təhlükəsizliyini təmin edib. Buna bütün Avropa, ən çox da Fransa sevinməlidir ki, dünyanın bir nöqtəsində separatizmə son qoyulub.

Amma nə olsun?! Fransada bu ağılsız əmələ əl atanlar unudurlar ki, COP29-un Bakıda keçirilməsi ölkəmizdə uzun illər aparılan dərin ekoloji siyasətin nəticəsidir. Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasındakı çıxışında ölkəmizin bu il COP29-a evsahibliyi etməsinin önəmi barədə demişdir: "İqlim dəyişikliyi ilə bağlı bu qlobal tədbirə evsahibliyi etmək istəyimizin olması bizim iradəmizi nümayiş etdirir. Bizə buna görə hücum olunmamalıdır, biz təqdir edilməliyik. Biz heç bir yanlış iş görməmişik. Lakin qərar qəbul olunan kimi bizə qarşı dərhal əlaqələndirilmiş, konsolidasiya olunmuş və çox ədalətsiz hücum edildi. Əvvəlki illərdə Azərbaycana qarşı çoxlu hücumlar olmuşdur, biz buna adət etmişik, biz özümüzü müdafiə edə bilərik. Lakin mən sizə sadəcə məlumat vermək istəyirəm ki, COP29-un Azərbaycanda təşkil edilməsi barədə yekdil qərar beynəlxalq birliyin ölkəmizə hörmətinin əlamətidir. Bizim tədbirə evsahibliyi etmək və bu işə töhfə vermək istəyimiz "yaşıl gündəliy"imizi nümayiş etdirir".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Prezidentinin qətiyyəti ilə reallaşan layihə

**Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivısində nazirlərin 2-ci iclası Azərbaycanın uğurlu enerji strategiyasından xəbər verir. Bu bir daha sübuta yetirir ki, "Cənub qaz dəhlizi" bütövlükdə region üçün uğur hekayəsidir.**



Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Vüqar Bayramov söyləyib ki, "Cənub qaz dəhlizi"nin reallaşması regionun enerji təhlükəsizliyinə mühüm töhfə verib: "Xüsusilə də son geosiyasi, regional və iqtisadi dəyişikliklər fonunda "Cənub qaz dəhlizi" nəinki Avropa İttifaqının, bütövlükdə regionun enerji təhlükəsizliyinin güclənməsində həlledici rol oynayıb. Etiraf etmək lazımdır ki, "Cənub qaz dəhlizi"nin reallaşması Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində mümkün olub. Nəzərə almaq lazımdır ki, bu layihənin müzakirəsi zamanı fərqli yanaşmalar sərgilənirdi, hətta bəzi ölkələr, o cümlədən Avropa İttifaqı layihənin smetasına görə ona tərəddüdlə yanaşırdılar. Amma dövlətimizin mövqeyi, Azərbaycan Prezidentinin siyasi iradəsi bu layihənin reallaşmasına imkan yaratdı. Daha sonra baş verən geosiyasi hadisələr, Rusiya-Ukrayna müharibəsi, eləcə də Avropa İttifaqının enerji mənbələrinin şaxələndirilməsi və digər işlər bir daha təsdiqlədi ki, Azərbaycanın bu məsələdə mövqeyi strateji əhəmiyyət daşıyırdı".

Deputatın sözlərinə görə, "Cənub qaz dəhlizi" layihəsinin reallaşması bütövlükdə region üçün kifayət qədər böyük hadisədir: "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında səsləndirilən fikirlər də bunu təsdiq edir. Açıq-aydın ortadadır ki, yeni dövrdə artıq yeni çağırışlar var. Azərbaycanda "yaşıl enerji"yə keçid müşahidə olunur. Ümumiyyətlə, regionda alternativ mənbələrdən enerji istehsalına ən çox sərmayə yönəldən ölkələrdən biri olaraq Azərbaycanın qısa zamanda "yaşıl enerji" hasilatını artırması və ixracını təşkil etməsi gözləniləndir.

"Azərbaycanla Avropa İttifaqı arasındakı anlaşmaya əsasən, 2026-cı ildən sonra ölkəmizdə istehsal edilən "yaşıl enerji" Gürcüstan, eləcə də Qara Dəniz vasitəsilə Avropaya çatdırılacaq. Bu isə ondan xəbər verir ki, Azərbaycan Avropaya yalnız ənənəvi enerji resursları məhsulları ilə deyil, həm də innovativ "yaşıl enerji"si ilə daxil ola biləcək. Azərbaycan hətta 2026-cı ildən sonra Avropa İttifaqına nəql etdiyi mavi qazın həcmini 20 milyard kubmetrə qədər artırmağı nəzərdə tutub. Bu, bir daha göstərir ki, Azərbaycan həm öhdəliklərinə və strateji əməkdaşlığa sadiqdir, həm də enerji keçidi prosesini dəstəkləyir və ona töhfə verir. Son iclas da bir daha təsdiqlədi ki, "Cənub qaz dəhlizi" region üçün nəinki əhəmiyyətini qoruyub saxlayıb, hətta davamlı bir layihəyə çevrilib. Deməli, Azərbaycan hələ uzun müddət regionun enerji təhlükəsizliyinə töhfə verməyə davam edəcək", - deyə müsahibimiz əlavə edib.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Bakıdan dünyaya qlobal çağırışlar ediləcək

## COP29 Azərbaycan üçün yeni fürsətlər yaradacaq

**Bu ilin noyabrında Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası baş tutacaq.**

COP29-un ölkəmizdə keçirilməsi bir çox cəhətdən böyük əhəmiyyət daşıyır. Belə mühüm tədbirə evsahibliyi etmək ölkəmizin nüfuzunu artırır. Digər tərəfdən, onun üzərinə konvensiyadan irəli gələn öhdəliklərlə yanaşı, iqlim dəyişikliklərinin gələcək mənfi təsirlərini minimuma endirmək üçün lazımi tədbirlər görmək vəzifəsi düşür.

Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Sosial Tədqiqatlar Mərkəzinin departament rəhbəri Seymur Əliyev bildirib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına Azərbaycanın evsahibliyi etməsi hadisəsini yalnız ölkə imici perspektivindən dəyərləndirmək məqbul olsa da, yetərli deyil: "Belə ki, tədbirin ölkəmizdə həyata keçirilməsinin verə biləcəyi əsas üstünlüklərdən biri heç şübhəsiz Azərbaycanın qlobal iqlim gündəliyinə sadiqliyi və aktiv rol alma təşəbbüsünün açıq demonstrasiyasıdır. Digər tərəfdən, COP29 çərçivəsində iqlim dəyişikliyi müzakirələri dövlət siyasətinin formulasiyası baxımından da çox önəmlidir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinin əsas prioritetlərdən biri kimi müəyyənləşdirildiyini nəzərə alsaq, belə olan halda tədbirə evsahibliyi strateji çərçivənin optimallaşdırılması baxımından da xüsusi önəm daşıyır".

Tədbirin Azərbaycan üçün bir sıra fürsətlər yaratdığını qeyd edən S.Əliyev



deyib ki, ilk növbədə sənayenin yenidən transformasiyası kontekstində ekoloji təmizliyə nail olmaq, təbii resurslardan dayanıqlı və davamlı istifadənin təmin olunması istiqamətində müvafiq siyasət transferlərinin tətbiqini dəyərləndirmək lazımdır. "Nəhayət, beynəlxalq iqlim dəyişikliyi sazişlərindən irəli gələn tələbləri qarşılamaq, eləcə də müvafiq təşəbbüslər ilə çıxış etmək önəmlidir. Burada xüsusilə qlobal istiləşmə və iqlim dəyişikliyi ilə mübarizədə istifadə edilən üsul və alətlərin nəzərdən keçirilməsini xüsusilə vurğulamaq yerinə düşər", - deyə o əlavə edib.

Departament rəhbəri vurğulayıb ki, problemlə mübarizə siyasətinin palitrasının zənginləşdirilməsi və sözügedən neqativ trendin inkişaf proyeksiyalarının müzakirə ediləcəyi bir platformanın ölkəmizdə keçirilməsi olduqca əhəmiyyətlidir. Eyni zamanda COP29 çərçivəsində Bakıdan dünyaya qlobal çağırışlar ediləcək. Bununla yanaşı, pozitiv elm vasitəsilə aşkar edilən tutarlı, qərəzsiz və danılmaz faktların dataya əsaslanan rasional siyasətlərin inkişafına təsiri qəbul edilsə də, bu funksiyanın qərar qəbul edənlərə müxtəlif aspektlərdən təsir göstərə biləcəyi də nəzərdən qaçmamalıdır.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ağacəkmə aksiyası keçirib

"Yaşıl dünya naminə həmrəylik ili"ndə ağacəkmə aksiyaları davam edir. Növbəti aksiya Novruz bayramının ikinci çərşənbəsi olan Od çərşənbəsində Müşfiqabad qəsəbəsində keçirilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ETSN, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin nümayəndələrinin, benefisiarların, ekokönüllülərin və "İnklüziv DOST" könüllülərinin iştirakı ilə 1 hektar ərazidə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.

Nazirliyin ağacəkmə aksiyalarını keçirməkdə məqsədi ağacəkmə işini ümummilli hədəflərdən birinə çevirmək, bizi birləşdirən ənənə halına gətirməkdir. Artıq ictimaiyyət nümayəndələri, dövlət və özəl təşkilatlar, könüllülər böyük həvəslə ağacəkmə aksiyalarına qoşularaq cəmiyyətimizdə bu xeyirxah ənənənin formalaşmasına dəstək olurlar.



# KOBİA BMT-nin Qlobal Sazişinə qoşulub




Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) BMT-nin Qlobal Sazişinə qoşulub.

KOBİA-dan AZƏRTAC-a bildirilib ki, agentlik BMT-nin Qlobal Sazişinin iştirakçısı olaraq strategiya və fəaliyyətini Dayanıqlı İnkişaf Məqsədlərinin müvafiq prinsiplərinə uyğunlaşdırmaqda, KOB-ların inkişafına və yeni sahibkarlıq subyektlərinin yaradılmasına dəstək olmaqla qlobal davamlı inkişaf strategiyasına öz töhfəsini verməkdə davam edəcək. Həmçinin agentlik 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasını və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçiriləcəyini nəzərə alaraq fəaliyyətində və KOB-larla iş prosesində ətraf mühit məsələlərinə, "yaşıl iqtisadiyyat"ın təbliğinə diqqəti daha da artıracaq.

Qeyd edək ki, BMT-nin Qlobal Sazişi 160-dan çox ölkədə 20 mindən artıq biznes və qeyri-biznes tərəfdaşını bir araya gətirir. Təşkilatın üzvlərinin əsas məqsədi öz strategiya və fəaliyyətlərini insan haqları, işçi hüquqları, ətraf mühitin qorunması ilə bağlı beynəlxalq səviyyədə qəbul edilmiş prinsiplərə, eləcə də "Dayanıqlı inkişaf üzrə 2030 Gündəliyi"nə uyğunlaşdırmaqdır.

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Xankəndidə separatizmi simvolizə edən binalar sökülür









Ermənistan münaqişə dövründə nəinki əhalisini zorla çıxardığı Qərbi Azərbaycanda, hətta illərlə işğalda saxladığı Qarabağda da azərbaycanlılara məxsus tarixi abidələri, yaşayış binalarını, dini ocaqları tamamilə dağıdıb məhv edərək izini silməyə çalışmışdır.

Torpaqlarımız işğaldan azad olunduqdan sonra bütün dünya Ermənistanın Qarabağda törətdiyi vandalizmə şahidlik etmişdir. Bu gün bütün dünya işğaldan azad olunmuş Azərbaycan ərazilərində erməni vandalizminin izlərini görür.

Azərbaycan torpaqlarını işğalçılardan azad etdikdən sonra dəfələrlə dünyanın aparıcı KİV-inə, beynəlxalq təşkilatlara, UNESCO-ya müraciət edib ölkəmizə dəvət edərək erməni vandalizminə şahidlik etmələrini israrla xahiş etmişdir. İşğaldan azad olunmuş ərazilərdə olan tarixi-mədəni abidələrin demək olar ki, hamısı erməni vandalizmindən bu və ya digər formada ziyan çəkib.

Vətən müharibəsindən sonra Ermənistan mətbuatı Azərbaycanın ermənilərə məxsus dini abidələri dağıtması haqqında böhtan, yalan kampaniyası apararaq beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışdı. Erməni ideoloqları hesab edirlər ki, yalandan hay-həşir salmaqla Qarabağda törətdikləri cinayətləri ört-basdır edə biləcəklər. Azərbaycana qarşı qərəzli kampaniya aparmağa həvəsli olan Ermənistanın əlinə indi də yeni "fürsət" düşüb. Azərbaycan hökuməti işğal dövründə Ermənistanın Xankəndidə qanunsuz inşa etdiyi binaların sökülməsi haqqında qərar verib. Mətbuatdan da məlum olduğu kimi, artıq bir neçə gündür ki, Xankəndidə qanunsuz tikilmiş, separatizmi simvolizə edən binalarda söküntü işləri aparılır. Xatırladaq ki, Xankəndi Azərbaycan ərazisi olduğu üçün sovet dönəmində orada inşa edilən bütün binalar şəhərin baş planına uyğun olaraq Ulu Öndərin rəhbərliyi ilə təsdiqlənib və Azərbaycan SSR tərəfindən şəhərdə tikinti işləri aparılıb. Orada görülən bütün tikinti işlərinin xərci də Azərbaycan Respublikasına ayrılan büdcə hesabına ödənilib.

Ermənistan Qarabağı işğal etdikdən sonra separatçılar şəhərdə baş plana uyğun olmayan erməni arxitekturası üslubunda, şəhərin ümumi mənzərəsinə xələl gətirən yöndəmsiz binalar tikiblər. Bu azmış kimi, separatizmi simvollaşdırmaq məqsədi ilə bu binalara qondarma adlar da qoyublar. Bu gün Xankəndidə söküntüsü aparılan, separatçıların "Parlament" adlandırdıqları bina əsl şeytan yuvası olub. İki xalq arasında düşmənçiliyi bu binada oturan quldurlar, erməni cəlladları salıb. Azərbaycana qarşı bütün işğal və soyqırımı planları bu binalarda cızılıb, qanlı qərarlar bu terror yuvasında qəbul olunub. Söküntüsü aparılan binalardan biri də "Arsaxı azad etmiş döyüşçülər" ittifaqının binasıdır. Yəni erməni düşüncəsi ilə desək, Arsaxın müharibə veteranlarının binası... Məlumdur ki, silahlı terrorçulardan ibarət dəstə kimi fəaliyyət göstərən YERKRAPA münaqişə dövründə minlərlə günahsız azərbaycanlının qətlə yetirilməsində fəal iştirak edib. Bu gün Azərbaycan əleyhinə siyasi kampaniya aparan erməni mətbuatı, KİV-i yönləndirən erməni ideoloqları heç özlərinə sual veriblərmi ki, görəsən, bu terrorçular haranı və kimdən azad ediblər? Bəlkə Azərbaycan ərazisində illərdir düşmənçilik toxumu səpib günahsız insanları qətlə yetirən terrorçuların cəmləşdiyi binaya "tarixi status" da verib qoruyaq. Erməni faşizminin, erməni işğalının simvoluna çevrilmiş bu qanunsuz tikililərin sökülməsində qeyri-adi nəsə axtarmaq ancaq axmaq adamların ağlına gələ bilər. Görünən budur ki, ağır məğlubiyyət ermənilərin ağıllarını da əllərindən alıb, normal düşüncədən də məhrum olublar.

Ermənilərin "tarix xəstəliyi"nə tutulmaları heç də təzə mövzu deyil. Harada bir bina varsa öz adlarına çıxıb ona "tarixi status" verirlər. Bu gün söküntüsü aparılan binalar Qarabağda separatçılıq hərəkatı başlayandan sonra tikilən qanunsuz tikililərdir. Hazırda Azərbaycanda ölkənin müxtəlif yerlərində tikilən belə qanunsuz tikilinin sökülməsi haqqında yüzlərlə fakt var. Buna siyasi don geyindirmək əslində siyasi nadanlıqdır. Unutmayaq ki, nadanlıq da ermənilərin ən yaxşı bacardıqları işdir.

Xatırladaq ki, Ermənistan həvəslə Şuşada da "parlament binası" inşa edirdi. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu yalnız Ermənistan ordusunu darmadağın etmədi, onların arzularını da gözlərində qoydu. Ermənistanın yersiz hay-küy salması onu göstərir ki, hələ də sərsəm iddialarından əl çəkməyiblər. Azərbaycanın öz ərazisində hansı qərarı verib, hansı addımı atması öz işidir. Bu cür sərsəmləmələrlə, yersiz iddialarla yalnız özlərini gülünc vəziyyətə salırlar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Avropa Parlamenti Azərbaycanın uğurlarını qəbul etmək istəmir

Bir vaxtlar Ermənistanın Azərbaycana qarşı işğalını davam etdirməsi üçün məkrli planlar quran, ikili standartlar sərgiləyən bəzi ermənipərəst Qərb ölkələri və beynəlxalq qurumlar bugünkü reallıqla barışa bilmirlər.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərinin işğaldan azad edilməməsinə, münaqişənin dondurulmasına və birdəfəlik həll olunmamasına otuz ilə yaxın cidd-cəhdlə çalışanların məqsəd və səylərini 2020-ci ilin payızında Müzəffər Azərbaycan Ordusu puça çıxardı.

Qəsbkar Ermənistanın növbəti təxribatı nəticəsində başlayan Vətən müharibəsi Azərbaycanın Zəfəri ilə bitdi. Bu, ədalətin, haqqın qalibiyyəti idi. Çünki Azərbaycan Ordusu öz torpaqlarında işğalçı ölkənin silahlı qüvvələri ilə döyüşərək qalib gəldi. Ölkəmizin Qarabağ və Şərqi Zəngəzur torpaqları yağıların tapdağından qurtuldu.

Haqsız da, haqlı da, işğalçı da, öz torpaqlarını işğaldan azad edən də məlumdur. İndi ortada sual doğuran, anlaşılmayan məsələ yoxdur. Ermənilərə nə qədər qahmar çıxsalar da, dəstək versələr də, həmin o Qərb ölkələri də, beynəlxalq qurumlar da istər-istəməz bu faktla razılaşmalı olublar: işğal olunan Azərbaycanın əraziləridir. Deməli, Ermənistan işğalçı dövlətdir. Ancaq görünən o idi ki, erməni lobbisinin təsiri altında olan Fransa kimi ölkələr və beynəlxalq təşkilatlar Ermənistanın işğalçılıq siyasətindən qətiyyən narahat və narazı deyildilər.

Azərbaycanın 2020-ci ildə Vətən müharibəsində ərazilərini işğalçı Ermənistanın silahlı qüvvələrindən azad etməsi, 2023-cü ildə Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyinin tam bərpasına nail olması və Cənubi Qafqazda lider dövlətə çevrilməsi bədxahların məkrli planlarını alt-üst etdi. Ölkəmizin dünyada mövqeyi gündən-günə möhkəmləndikcə düşmənlər qarayaxma kampaniyasını da gücləndirirlər. Ancaq faktları təhrif etməklə, beynəlxalq hüquqa zidd, böhtan xarakterli və tamamilə əsassız qərarlar verməklə haqqın üzərinə kölgə sala bilmirlər. Ortaya atdıqları yalanlarla, iftiralarla yalnız özlərini gözdən salırlar.

Martın 4-də Prezident İlham Əliyev Bolqarıstan Respublikası Xalq Məclisinin sədri Rosen Dimitrov Jelyazkovu qəbul etdiyi zaman bildirdi ki, Azərbaycan beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Bundan sonra bir sıra Avropa təsisatları tərəfindən Azərbaycana qarşı genişmiqyaslı kampaniyanın başlandığını və bunun qərəzli xarakter daşıdığını qeyd etdi. Avropa Şurası Parlament Assambleyasında Azərbaycana qarşı qərəzli və çirkin kampaniyanın aparıldığını bildirən dövlətimizin başçısı, bu cür yanaşmanın nümayəndə heyətimiz üçün dözülməz olduğunu vurğuladı. Bu ədalətsizliyə qarşı bir sıra ölkələrin parlamentləri tərəfindən mövqenin ifadə olunduğunu qeyd etdi.

Prezident İlham Əliyev 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra Azərbaycanın sülhün irəli aparılması üçün təşəbbüslərinə Ermənistanın müsbət münasibət bildirmədiyini, əksinə Qarabağda silahlandırma və militarizasiya siyasəti apardığını, həmin ərazilərə böyük həcmdə minaların və silah-sursatın göndərilməsini davam etdirdiyini də xatırlatdı.

Avropa Parlamenti tərəfindən fevralın 28-də qəbul edilmiş "Ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsi haqqında illik hesabat" da bu qurumun iç üzünü bir daha açıq şəkildə göstərdi. Qurumun Xarici Əlaqələr Komitəsinin hazırladığı illik hesabatda faktlar tamamilə təhrif olundu. Böhtan, yalan və iftiralarla dolu olan "Ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsi haqqında illik hesabat"ı ilə Avropa Parlamenti özünü daha da gözdən saldı, rüşvətxor avroparlamentarilərin oyuncağına çevrildiyini təsdiq etdi.

Görünən odur ki, Azərbaycan lokal xarakterli antiterror tədbirləri nəticəsində ərazisində işğalçı ölkənin silahlı qüvvələrinin tör-töküntülərini və separatçıları məğlubiyyətə uğradaraq suverenliyini tam bərpa etdikdən sonra Fransa kimi ermənipərəst dövlətlərin və beynəlxalq təşkilatların ölkəmizə qarşı diplomatik hücumu daha da intensivləşib. Bu il yanvarın 22-də qış yarımsessiyasının açılış günündə Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinin etimadnamələrinin təsdiq edilməməsi, ardınca Avropa Parlamentində Azərbaycana qarşı sanksiyalara çağırışların yer aldığı bədnam qətnamə qəbul olunması bu münasibətin təzahürüdür. Avropa Parlamentinin bu ilin fevralında qəbul etdiyi növbəti riyakar qətnamə - "Ümumi təhlükəsizlik və müdafiə siyasətinin həyata keçirilməsi ilə bağlı illik hesabat"ı ölkəmizə qarşı aparılan həmin çirkin kampaniyanın tərkib hissəsidir.

Lakin qarayaxma kampaniyasının bir hissəsi olan bundan əvvəlkilər kimi, bu ilin fevralında Avropa Parlamentinin qəbul etdiyi qərəzli qətnamə də Azərbaycan üçün heç bir siyasi, hüquqi qiymətə malik deyil.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Qərbi Azərbaycan İcması Yunanıstanla Ermənistan arasında hərbi əlaqələrin mahiyyətindən ciddi narahatlığını ifadə edib

Qərbi Azərbaycan İcması Yunanıstanın müdafiə naziri Nikos Dendiasın Ermənistana son səfəri və ümumiyyətlə, bu iki ölkə arasında hərbi əlaqələrin mahiyyətindən ciddi narahatlığını ifadə edib.

AZƏRTAC xəbər verir ki, bu barədə İcmanın açıqlamasında qeyd olunub. Açıqlamada, həmçinin bildirilib: "Yayılan məlumatlara görə, səfər zamanı Yunanıstan tərəfinin Ermənistana hərbi dəstəyini artırması, o cümlədən Ermənistanın ordu idarəetməsində iştirakı barədə razılıq əldə olunub. Bundan əlavə, nazir Dendias Yunanıstan, Ermənistan, Fransa və Hindistan arasında dördtərəfli hərbi əməkdaşlıq formatının yaradılması səyləri barədə danışıb.

Ermənistanın Fransa, Hindistan və Yunanıstanın dəstəyi ilə sürətlə silahlanması, Fransa və Yunanıstanın bu ölkənin ordusunun idarəetməsində rol alması, dördtərəfli hərbi əməkdaşlıq formatının yaradılması planları ciddi narahatlıq doğurur.

Yunanıstan, Ermənistan, Fransa və Hindistan arasında dördtərəfli hərbi əməkdaşlıq formatının yaradılması niyyətinə gəlincə isə qeyd edək ki, eyni regionda yerləşməyən dövlətlərin belə əməkdaşlıq formatı BMT Nizamnaməsinə və beynəlxalq hüquqa ziddir. Fransa, Hindistan və Yunanıstan bu cür addımları ilə Ermənistanı Azərbaycana qarşı növbəti hərbi təcavüzə sürükləyir.

Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən avantüraya getməməyi, militarist siyasətinə son qoymağı, Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına şərait yaradaraq ölkəmizlə sülh yolunu tutmağı tələb edir".

## *İcma:* Almaniya Xarici Əlaqələr Şurasından əsas diqqətini azərbaycanlılara qarşı haqsızlıqlara yönəltməyi tələb edirik

"Almaniya Xarici Əlaqələr Şurası martın 6-da Azərbaycanın Qarabağ bölgəsində mədəni irsin təhlükədə olması bəhanəsi ilə tədbir keçirir. Öz dini təəssübkeşlik baxışlarını gizlətməyən Daqmar Heller adlı şəxsin Azərbaycanın ərazi bütövlüyünə qəsd edən başlığa malik və iftiralarla dolu kitabının təqdimatına həsr edilmiş bu tədbir anti-Azərbaycan xarakteri daşıyır".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı açıqlamasında yer alıb. Açıqlamada qeyd edilib: "Xatırlatmaq istərdik ki, özünü peşəkar və bitərəf qurum kimi qələmə verən Almaniya Xarici Əlaqələr Şurası Azərbaycan mədəni irsinin dağıdılması, bir milyon azərbaycanlının etnik təmizləməyə məruz qalması mövzularında bir dəfə də olsun tədbir keçirməyib və öz nəşrlərində, hesabatlarında bu məsələni görməzdən gəlib. Ermənistanın öz ərazisində və işğal etdiyi Azərbaycan ərazilərində ölkəmizin mədəni irsini kütləvi şəkildə dağıtması faktına göz yummuş bir elmi qurumun, indi bir ovuc qərəzli, radikal ünsürləri yığıb Qarabağda erməni abidələrinə təhlükə olması "ehtimalı" barədə tədbir keçirməsi dini və etnik əsasda ayrı-seçkilikdir və elm adına böyük utancdır".

Qərbi Azərbaycan İcması, həmçinin Almaniya Xarici Əlaqələr Şurasından həmin tədbirdən imtina etməyi, əsas diqqətini Ermənistandan azərbaycanlıların qovulması və onların mədəni irsinin tamamilə dağıdılması kimi baş vermiş haqsızlıqlara yönəltməyi, məhz bu mövzularda tədbir keçirməyi tələb edib.

## Trampı ruhlandıran qələbə günü

### Co Bayden və eks-prezident faktiki olaraq öz partiyalarından namizədliklərini təmin ediblər

ABŞ-də Demokrat və Respublikaçılar partiyalarından namizədlər üçün ən böyük ilkin seçkilər - "super çərşənbə axşamı" keçirilib. Bu səsvermələr nəticəsində Ağ Evin hazırkı rəhbəri Co Bayden və eks-prezident Donald Tramp faktiki olaraq öz partiyalarından namizədliklərini təmin ediblər.

Donald Trampın rəqibi, ABŞ-nin BMT-dəki keçmiş daimi nümayəndəsi Nikki Heyliyə gəlincə, onun heç bir şərh verməməsi yəqin ki, mübarizəsinin bitdiyini göstərir.

Martın 5-də 15 ştatın və 1 ərazinin (Amerika Samoası) sakinləri iki partiyanın - demokratların və respublikaçıların nümayəndələrinin yarısından bir qədər azının səsini kimin alacağına qərar veriblər.

Co Bayden demokratların əsas namizədidir və onun heç vaxt ciddi rəqibləri olmayıb. Martın 5-nə qədər onun namizədliyi üçün lazım olan 1968 nümayəndədən 206-sı var idi.

Keçmiş prezident Donald Tramp da yeganə rəqibi Nikki Heyli üzərində əhəmiyyətli üstünlük əldə edib. "Super çərşənbə axşamı" gününə qədər Donald Tramp Respublikaçılar Partiyasının ilkin seçkilərinin demək olar ki, hamısında qalib gələrək 276 nümayəndənin (tələb olunan 1215 nümayəndədən) səsini qazanmışdı. Onun rəqibi yalnız 43 nümayəndənin dəstəyini qazanıb, onların demək olar ki, yarısı (19) paytaxt Vaşinqtonda qələbəsindən sonra əldə olunub. Respublikaçılar arasında rəqabətli mübarizə yalnız Heylinin Donald Trampı qabaqladığı Vermontda baş tutub.



Bununla Heyli respublikaçıların praymerizində 2 dəfə qalib gələn ilk qadın olmaqla tarix yazıb.

Martın 5-dən əvvəl Donald Trampın komandası 16 ştatın hər birində qalib gələcəyini vəd edib və günü 1000-dən çox səslə başa vurub. Nikbin proqnozlar əsasən özünü doğruldub.

Trampın çərşənbə axşamı qələbəsi mühafizəkar "Fox News"-un gecəni ABŞ tarixində bir siyasətçi üçün "ən böyük tarixi dönüş" adlandırmasına səbəb olub. Bir gün əvvəl ABŞ Ali Məhkəməsinin Kolorado Ali Məhkəməsinin Trampın səsvermə bülletenindən kənarlaşdırıla biləcəyi ilə bağlı arqumentlərini rədd etməsi eks-prezidentə daha çox inam qazandırıb. Bundan başqa, məhkəmə eks-prezidentin vəzifədə olarkən mütləq prezidentlik toxunulmazlığının olub-olmaması ilə bağlı müraciətini də qəbul edib. Bu, onun Vaşinqtonda 6 yanvar 2021-ci il hadisələri - Kapitoliyə hücumla bağlı işinə baxılmasını ən azı yaya qədər təxirə salıb və Tramp komandasına diqqəti seçkilərə yönəltmək imkanı verib. Floridadakı iqamətgahına toplaşan tərəfdarları qarşısında çıxış edən Donald Tramp həmin axşam tarixi qələbəsini qeyd etdiyini bildirib: "Ona görə də buna "super çərşənbə axşamı" deyirlər... Heç vaxt bu qədər inandırıcı bir şey olmayıb. Bu, heyrətamiz bir gecə, ruhlandırıcı bir gün idi... Co Baydenin prezidentliyi bir çox cəhətdən kədərli oldu, lakin bu, ruhlandırıcı olacaq, çünki biz uzun müddət heç kimin edə bilmədiyini həyata keçirəcəyik". Donald Tramp çıxışında iqtisadiyyat və qeyri-leqal miqrasiya problemlərinə də toxunub və Co Baydeni xarici siyasətdəki uğursuzluqlarına görə qınayıb. Analitiklərin fikrincə, Donald Tramp martın 12-də lazımi sayda nümayəndə səsi toplaya bilər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR

# Bu yaz bir başqa yazdır...



**Qarabağa yaz gəlir. Bu yaz bir başqa yazdır. Kol dibində ürkək-ürkək baxan bənövşənin, qar altından baş qaldırıb nazla boylanan novruzgülünün ətri, rahiyəsi də bir başqa cürdür.**

Təbiətin oyanışından cuşa gələn quşlar sanki bir-biri ilə bəhsə girirmiş kimi həvəslə oxuyur. Qeyri-adi bahar simfoniyası ılıq yaz mehinin qanadlarında çölə, çəmənə yayılır.

Qarabağa yaz gəlir. Bu yaz bir başqa yazdır. 30 il idi Qarabağa gələn yaza sevinə, şadlana bilmirdik, erməni faşistlərinin işğalı altında inləyən, imdad diləyən, için-için qovrulub yanan Qarabağ, Şərqi Zəngəzur yaz sevincinə, bahar ovqatına həsrət qalmışdı.

Nəhayət, bu həsrətə son qoyuldu. Şəhidlərimizin qanı ilə suvarılan Qarabağ, Şərqi Zəngəzur azadlığa qovuşdu. 30 il çərşənbə tonqalları başında göylərə əl qaldırıb etdiyimiz dualar Allah dərgahında qəbul edildi.

Bu yaz ona görə başqa bir yazdır ki, Zəfərəcən bu bərəkətli çöllərin sükutunu tankların, topların ağır zirehli texnikaların ölümsaçan gurultusu pozardı. İndi isə fərqli bir mənzərədir. Öz əməli sahibinə qovuşan Qarabağ indi nəfəs alır. Ruzi, bərəkət qoxulu torpaqlarımız min bir həvəslə əkilib becərilir. Tankların, torpaqların gurultusunu indi şum edən, toxumu səpən traktorların səsi əvəz edir. Yazın ətri duyulan bu günlər Qarabağda, Şərqi Zəngəzurda tikinti, quruculuq işlərinin sürəti də artıb. Yollar çəkilir, körpülər salınır, yeni və yaraşıqlı kəndlər, şəhərlər inşa olunur. Doğma yurda Böyük qayıdış davam edir. Köç maşınları Qarabağın, Şərqi Zəngəzurun yollarında ard-arda düzülür. Sönmüş ocaqlar yenidən yanır, soyuq divarlar doğma sahiblərinin hərəkətli nəfəsi ilə yenidən isinir.

Bu yazın fərqli bir yaz olduğunu təsdiqləmək üçün təbii ki, çoxlu nümunələr göstərə bilərik. Amma buna sadəcə ehtiyac yoxdur. Yetər ki, Qarabağda, Şərqi Zəngəzurda yolunuzu istənilən bir bölgəyə salın, uzun həsrətdən sonra doğma yurduna, isti ocağına qovuşan, uğrunda canından belə keçməyə hazır olduğu torpaqla yenidən ünsiyyət quran, ürəyinin odu, əllərinin hərarəti ilə bu yerlərin hər qarışını cənnətə döndərməyə çalışan insanların təbəssüm naxışlı, fərəh süzülən çöhrəsinə baxın. O çöhrələrdə yaşamış ağrı-acıları, dözülməz müsibətləri və parlaq Qarabağ zəfərindən doğan sahilsiz sevinci, xoş ovqatı, qələbədən doğan qüruru, daha nələri, nələri görəcəksiniz.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Torpaq ona baş əyəni ucaldır

## Ötən ili yüksək göstəricilərlə yola salan tovuzlu fermerlər cari ildə daha yüksək nəticələr qazanmaq əzmindədirlər

**Tovuzun aqrar sektorunda ənənəvi əkinçilik sahələri və heyvandarlıq aparıcı rol oynayır. O üzdən kartofçuluq, taxılçılıq, üzümçülük, tütünçülük və digər kənd təsərrüfatı bitkilərinin əkin sahələri genişləndirilir, idxalı əvəz edən yerli istehsala diqqət artırılır və bu zaman daha məhsuldar sortlara üstünlük verilir.**

Ötən mövsüm əkin sahələrini genişləndirərək 18454 hektara çatdıran Tovuz taxılçıları 15644 hektarda buğda, 2810 hektarda arpa yetişdirmişlər. Buğda sahələrinin hər hektarından 41,9, arpa əkilən hər hektardan 29,3 sentner məhsul biçilmişdir. Taxıl istehsalı ilə məşğul olan ayrı-ayrı təsərrüfatlara gəldikdə, məsələn, "Aqro Dairy" MMC-yə məxsus ərazidə 8880 hektar payızlıq taxıl səpilmişdir. Sahələrdən 26883,2 ton buğda, 3235 ton arpa götürülmüşdür. "Tovuz Aqrokompleks" də uğurlu göstəriciyə nail olmuşdur. Belə ki, 260 hektar sahədə səpilmiş payızlıq buğda sahəsinin hər hektarından 46 sentner olmaqla ümumilikdə 1196 ton məhsul əldə edilmişdir.

Gədəbəydən sonra kartof istehsalına görə ön sıralarda olan Tovuzda bu vacib bitkinin istehsalı da durmadan artır. Hər il kartofdan xeyli qazanc əldə edən təsərrüfat rəhbərləri keçən il də yüksək göstəricilərə nail olmuşlar. Onlar əkin sahələrini genişləndirərək 5271,2 hektara çatdırmışlar. Bu sahədə də yüksək göstəricilər qazanan çoxlu sayda təsərrüfatlar var. Məsələn, uzun illərdir kartofçuluqla məşğul olan ikinci dərəcəli "Əmək" ordenli Ədalət Məhərrəmov 33,37 hektar sahənin hər hektarından 65 ton məhsul götürmüşdür. Onu da qeyd edək ki, təsərrüfatda istehsal olunan kartof, əsasən, toxum üçün nəzərdə tutulmuşdur.

Tovuzda heyvandarlığın inkişafı da diqqət çəkir. Yanvarın 1-nə olan məlumata görə, rayon üzrə 164030 baş qoyun və keçi, 41036 baş malqara var. Mal-qaranın 42,6 faizini ana inəklər təşkil edir. Heyvandarlıq məhsullarının istehsalında ayrı-ayrı təsərrüfatlar daha çox fərqlənirlər. Məsələn, Qovlar sakinləri Şahin Ələsgərov, Tofiq Bayramov, Cəlal Ələsgərov və bir çoxları rayon üzrə ət istehsalında həmişə öndə gedirlər.

Qaraxanlı kənd sakini Zeynalabdin Zeynalovun və Bozalqanlı kənd sakini Orxan Tağıyevin təsərrüfatları isə quşçuluq sahəsində ixtisaslaşıb. Hazırda Z.Zeynalovun təsərrüfatında 6000, O.Tağıyevin təsərrüfatında 14000 quş saxlanılır.

Rayonun ən böyük kəndlərindən olan Bozalqanlıda süd zavodu fəaliyyət göstərir. Zavod sutka ərzində 200-300 litr süd qəbul etmək gücündədir. Burada 20-dək işçi çalışır. Hələlik qatıq və yağ istehsal edən zavodun rəhbəri Gökhan Cengiz deyir ki, istehsal etdikləri məhsullara tələbat çox olduğundan məhsulları heç vaxt anbarda qalmır.

Bunlardan savayı, tovuzlular dən üçün qarğıdalı, paxlalı bitkilər, müxtəlif tərəvəzlər, bostan, günəbaxan, şəkər çuğunduru, tütün də yetişdirirlər. Əvvəlki illərdə olduğu kimi, keçən il də bu sahələr üzrə yüksək nəticələr əldə edilmişdir. Məsələn, əkin sahələrindən 5751,3 ton qarğıdalı, 380,6 ton tərəvəz, 128,8 ton bostan, 69,6 ton günəbaxan, 164,6 ton meyvə və giləmeyvə, 8249,3 ton üzüm, 13471,7 ton kartof, 7780 ton şəkər çuğunduru, 65,1 ton tütün, 3700,7 ton yem bitkiləri yığılmışdır.



Qeyd edək ki, Tovuzda iqtisadi cəhətdən daha gəlirli olan tütünçülüyə son bir neçə ildə xüsusi diqqət yetirilir. Artıq 4-cü ildir rayonda bu sahə ilə "Tovuz Aqro Sənaye" MMC məşğul olur. Müəssisədə 250 nəfər çalışır. Keçən il MMC 20 hektarda tütün şitili basdırmışdı. Yaz-yay aylarında havaların sərt və yağmurlu keçməsinə baxmayaraq, tütünçülər aqrotexniki tədbirləri vaxtında həyata keçirərək nəzərdə tutulduğundan çox məhsul təhvil vermişlər. Yeri gəlmişkən bildirək ki, iki ildir yaş tütünün qurudulmasında yaranan çətinlik artıq aradan qaldırılmışdır. Belə ki, "Tovuz Aqro Sənaye" MMC-nin nəzdində 10 işçisi olan tütünqurutma sexi fəaliyyətə başlamışdır.

Gəlirli sahələrdən biri də baramaçılıqdır. Rayonda elə kənd yoxdur ki, orada barama saxlamağa maraq göstərilməsin. Bu sahənin inkişafına dövlətin verdiyi dəstəyin nəticəsidir ki, Tovuz kümçüləri hər il yüksək göstəricilər əldə edirlər. Onlar keçən il qəbul məntəqələrinə 7 ton yaş barama təhvil vermişlər. Hazırda baramaçılığın yem bazasının yaradılması üçün işlərə başlanılmışdır.

Əvvəlki illərdə olduğu kimi, keçən il də rayonda abadlıq və quruculuq işləri davam etmiş, əhalini narahat edən bir çox problem həll olunmuşdur. İl ərzində yollara 40800 kvadratmetr asfalt salınmış, 5700 kvadratmetr tamet daşı döşənmiş, küçələrin işıqlandırılması üçün 72 elektrik dayağı quraşdırılmış, piyada yollarına 400 paqonmetr daş düzülmüşdür. Eyni zamanda 2 şəhid ailəsinə ev tikilmişdir. Hər iki ev təmir olunmuşdur.

Tovuzlular keçən il qazandıqları uğurlardan heç də arxayınlaşmırlar. Onlar cari ilə də ruh yüksəkliyi ilə başlamışlar. İndi hər bir tovuzlu çalışır ki, daha böyük nailiyyətə imza atsın. Bunun üçün isə rayonda hər cür imkan və şərait vardır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Dağ kəndinin qazlaşdırılması davam edir

**Masallının Əzizabad kəndində növbəti 17 evə təbii qaz verilib. Qeyd edək ki, Əzizabad kəndi ucqar dağ relyefli ərazidə yerləşir. Kənddəki 96 evdə 455 nəfər yaşayır.**

Daha 17 evin qazlaşdırılması münasibətilə keçirilən tədbirdə çıxış edən əzizabadlılar bu işdə əməyi olan hər kəsə minnətdarlıqlarını bildirmişlər. Sonra tədbirdə iştirak edən RİH-nin və "Azəriqaz" İB-nin nümayəndələri rayonun Təzə Alvadı kəndindəki qaz xətlərində aparılan təmir işləri və yeni məhəllələrə qaz çəkilişi ilə tanış olmuşlar.

***S.CAVADOV,***
***"Azərbaycan"***

# Belə getsə, bağbanın da təbiət hadisələrindən qorxusu olmayacaq

## Gilas bağları sığortaya cəlb edilir

**Dünyada aqrar sektora maraq sürətlə artmaqdadır. Səbəbi məlumdur - ərzaq təhlükəsizliyinin təminatı indi bütün ölkələr üçün strateji məsələyə çevrilib. Son vaxtlar yaxın və uzaq regionlarda baş verən hadisələr isə göstərir ki, həmin işdə idxala güvənmək həddən artıq risklidir.**

Ona görə də ölkəmizdə aqrar sektor üzrə islahatlar zamanı daxili istehlak bazarının yerli istehsal hesabına ödənilməsi hədəfə alındı. Bunun üçünsə məhsulun toxum və sortundan başlamış əkininə, toplanmasına və saxlanmasınacan çox şərtlərə əməl etmək lazım idi. Belə tədbirlərdən biri, bəlkə də birincisi, aqrar sığortanın tətbiqi idi. Bəri başdan qeyd edək ki, həmin şərtlərin sırasında aqrar sığorta artıq bir neçə ildir uğurla fəaliyyət göstərir. Hətta demək olar ki, Aqrar Sığorta Fondu kənd təsərrüfatı məhsulları istehsalçılarının dostuna, xilaskarına çevrilib.

İndi onların sırasına gilas yetişdirən bağbanlar da qoşulur. Son dövrlər bu növ məhsul ölkənin daxili tələbatını ödəməklə yanaşı, ixracda da önəmli yer tutmağa başlayıb. Son üç ildə bağbanlar gilas ixracından 120 milyon dollar gəlir əldə ediblər. Odur ki, bir çox sahədə olduğu kimi, gilas istehsalında da məhsuldarlığı artıran yeni üsullardan istifadəyə üstünlük verilir. Belə ki, mövcud gilas bağlarının 2900 hektarını intensiv və superintensiv bağlar təşkil edir. Yeri gəlmişkən qeyd edək ki, ölkə üzrə 65 rayonda ümumilikdə 12 min hektar gilas bağları var. Gilas bağları ən çox Quba-Xaçmaz iqtisadi rayonunda mövcuddur - bağların 45 faizi bu iqtisadi rayonun payına düşür.



Amma orası da var ki, gilas təbiət hadisələrinə və ətraf mühitdə baş verən dəyişikliklərə həssas bitkidir. Bu üzdən gilas bağlarının aqrar sığortaya cəlb olunması vacibdir. Aqrar Sığorta Fondu gilas bağlarının sığorta olunması ilə bağlı fermerlər və fərdi sahibkarlarla söhbətlər aparır və onlara məlumatlar verir. Tariflərə və sığorta haqqına gəldikdə, onlar regionlar üzrə fərqlidir. Başqa sahələrdə olduğu kimi, gilas yetişdirənlərə də sığorta haqqının 50 faizini dəstək üçün dövlət verir. Məsələn, 1000 manatlıq gilas məhsulunun baza sığorta zərfi ilə sığorta edilməsi fermerə Quba-Xaçmaz regionunda 20, Dağlıq Şirvan regionunda 24, Mərkəzi Aran, Lənkəran-Astara və Şirvan-Salyan regionlarında 18 manata başa gəlir. Bu rəqəm Qazax-Tovuz və Gəncə-Daşkəsən, Qarabağ və Şərqi Zəngəzur regionlarında 39, Şəki-Zaqatalada 33 manat təşkil edir.

Bundan başqa, əlavə ödəniş əvəzində gilas bağının meyvəsini şaxtavurma (donvurma), yağmur və doludan keyfiyyət itkisi kimi vacib risklərdən sığortalamaq olar. Hətta gilas ağaclarını da ayrıca sığortalamaq mümkündür. Bu zaman ağac məhv olduğu halda, onun 3 illik meyvəsinin dəyəri qədər ödəniş edilir. Belə sığorta üçün tarif ölkənin bütün ərazisində 0,83 faizdir. Məsələn, ildə 50 manatlıq məhsul verən gilas ağacının çoxsaylı risklərdən qorunması üçün sığorta haqqı cəmi 1,26, fermerin ödədiyi məbləğ isə cəmi 0,63 manatdır.

Sonda bildirək ki, Aqrar Sığorta Fondu gilas bağları üzrə sığorta ödənişlərinə artıq başlayıb. 2023-cü ilin sonunda İsmayıllıdakı gilas bağlarında təbiət hadisəsi nəticəsində dəyən zərərə görə 2 fermerə 42 min manat sığorta ödənişi edilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Samuxda 2 min ağac əkilmişdir

**Samuxda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ağacəkmə aksiyası keçirilmişdir.**

Rayon rəhbərliyinin, təşkilatlarının, şəhid ailələrinin iştirak etdikləri aksiyada Ziyadlı kəndindən Kür çayına tərəf gedən yolun, eləcə də Gəncə-Samux avtomobil yolunun kənarlarında 2000-dən çox ağac əkilmişdir.

Aksiyanın keçirilməsində məqsəd "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ekoloji vəziyyətin sağlamlaşdırılması, cəmiyyətdə ekoloji mədəniyyəti və təbiətə qayğını təbliğ etmək, eləcə də yaşıllıqların çoxaldılmasını təşviq edərək ətraf mühitin qorunmasına töhfə verməkdən ibarət olmuşdur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Toxumçuluğun vəziyyəti müzakirə olunub

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) birgə təşkilatçılığı ilə "Toxumçuluğun inkişaf perspektivləri - sahəyə yeni baxış" mövzusunda konfrans keçirilib.**

Konfransda Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları, Aqrar Xidmətlər Agentliyinin rəhbərliyi və əməkdaşları, FAO, elmi-tədqiqat institutlarının, Azərbaycan Toxumçular Assosiasiyasının, həmçinin özəl toxumçuluq təsərrüfatlarının nümayəndələri və toxumçu fermerlər iştirak edib.

Konfransın keçirilməsində əsas məqsəd toxumçuluğu elmi əsaslarla inkişaf etdirmək, toxumçuluq sisteminə dövlət nəzarəti, ilkin toxumçuluğun təşkilində beynəlxalq təcrübədən faydalanmaq, toxumçuluq sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, eləcə də özəl toxumçuluğun inkişaf perspektivləri və bu sahədə yeni innovativ texnologiyaların tətbiqini təşviq etməkdir.

AXA sədri Sərdar Hacıyev toxumçuluqda mövcud vəziyyət və qarşıda duran hədəflər barədə məlumat verib. Bildirib ki, toxumçuluq kənd təsərrüfatının çox vacib sahəsi, aqrar sektorun inkişaf dinamikasını müəyyən edən amillərdən biridir. Ərzaq təhlükəsizliyinin təmin olunmasının prioritet istiqamətlərindən biri toxumçuluq sahəsində fəaliyyətin səmərəli təşkilidir. Sərdar Hacıyev fermerlərin keyfiyyətli toxuma olan əlçatanlığının təmin edilməsinin, toxumçuluğun elmi əsaslarla inkişaf etdirilməsinin, toxumluq əkin sahələrində aprobasiyanın vaxtında və keyfiyyətlə aparılmasının, toxum istehsalına nəzarətin təkmilləşdirilməsinin, həmçinin yüksək və keyfiyyətli məhsul istehsalı üçün toxumluq sahələrdə aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinin vacibliyini nəzərə çatdırıb.

FAO-nun nümayəndəsi Namiq Məmmədov təmsil etdiyi təşkilat tərəfindən toxumçuluq sahəsində həyata keçirilən layihələrin əhəmiyyəti barədə məlumat verib.

Konfrans öz işini panel sessiyalarda davam etdirib. Sessiyalarda toxumçuluq sistemi: ölkədə toxum istehsalına dövlət nəzarəti və beynəlxalq təcrübə, dövlət toxum nəzarət sistemi, toxumçuluqda mövcud vəziyyət, toxum tələbatı, toxumçuluq sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi mövzularında müzakirələr və təqdimatlar keçirilib. Müzakirələrdə toxumçuluğun inkişaf etdirilməsi, ilkin toxumçuluğun təşkilində beynəlxalq təcrübədən istifadə, toxumçuluqda yeni innovativ texnologiyaların tətbiqi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Düriyyə-Şümrüd avtomobil yolu əsaslı təmir edilir

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Astara rayonunun Düriyyə - Şümrüd avtomobil yolunun əsaslı təmiri davam edir.**

Əsasən torpaq əsaslı olan yolda xüsusən payız-qış aylarında gediş-gəliş çətinləşir, istər avtonəqliyyat vasitələrinin, istərsə də vətəndaşların hərəkətində maneələr yaşanırdı. Bütün bunlar nəzərə alınaraq layihə çərçivəsində ümumi uzunluğu 5 km təşkil edən yolun eni 8 metrə qədər genişləndirilir.



Artıq layihə üzrə yol yatağının yararsız qruntunun çıxarılması, əks-dolğu və zəruri qruntun tökülərək kipləşdirilməsi işləri, lazım olan yerlərdə müxtəlif diametrlərə malik yeni suötürücü dəmir-beton boruların quraşdırılması yekunlaşmaq üzrədir.

Sözügedən yolboyu işlər texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək sürətlə aparılır.

***S.CAVADOV,***
***"Azərbaycan"***



# Vətən deyəndə...



Qarabağ Azərbaycandır

# Qəhrəman xalqın övladları...

**İgidlik, mərdlik Azərbaycan xalqının canında, qanındadır. Mübarizədən çəkinməyi, döyüşdən qaçmağı bu xalqın övladları tarix boyu özlərinə ar bilib, qorxaqları, cəsarətsizləri qınayıblar. Cəsurlara, qəhrəmanlara isə sonsuz ehtiram, sevgi göstəriblər.**



Bəşəriyyət İkinci Dünya müharibəsi fəlakəti ilə üzləşəndə Azərbaycan xalqı da çox çətin sınaqdan mərdliklə çıxdı. O zaman respublikamız Sovet İttifaqının tərkibində idi. İkinci Dünya müharibəsi 1939-cu il sentyabrın 1-də iki imperialist ittifaq arasında başladı. Ancaq keçmiş Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) da təhlükədən uzaq deyildi. Müharibənin ilk günlərindən alman qoşunları SSRİ sərhədlərinə yaxınlaşdı. 1940-cı ilin iyulunda Adolf Hitlerin: "Rusiya gərək məhv edilsin! Müddəti - 1941-ci ilin yazı!", - deməsi müharibənin qaçılmaz olduğunu təsdiqlədi.

1941-ci il iyunun 22-də faşist Almaniyası Sovet İttifaqına hücum etdi. SSRİ-nin tərkibində olan digər respublikalar kimi Azərbaycan da İkinci Dünya müharibəsinə qatıldı. Bu dəhşətli savaş SSRİ, eləcə də Azərbaycan tarixinə Böyük Vətən müharibəsi kimi yazıldı.

Böyük Vətən müharibəsində faşizmə qarşı müharibədə respublikamızın əraziləri hərbi əməliyyat meydanına çevrilmədi. Ancaq Azərbaycan o dəhşətli müharibənin əvvəlindən sonunadək fəal iştirak etdi. Respublikamız həm sərvətləri, həm də insan qüvvəsi ilə faşizmə qarşı müharibədə ön sırada oldu. Azərbaycanlılar ön cəbhədə də, arxa cəbhədə də böyük rəşadət göstərdilər. Bakı nefti alman komandanlığının xüsusi diqqətindəydi. Tarixçilər qeyd ediblər ki, Qafqaz uğrunda vuruşlarda əsas məqsəd Bakı üzərində nəzarəti ələ keçirmək idi. Plana əsasən, faşistlər Bakını 1941-ci il sentyabrın sonunadək işğal etməli, zəngin neftini ələ keçirməli idi.

Tarixi faktdır ki, Böyük Vətən müharibəsinin ilk günlərində faşizmə qarşı vuruşmaq üçün Azərbaycanda 4 mindən çox oğlan və qız cəbhəyə getmək üçün könüllü olaraq hərbi komissarlıqlara müraciət etdi. 1941-ci ilin avqust ayınadək xalq qoşunu dəstələrinə təxminən 123 min nəfər yazıldı. Həmin ilin axırında xalq qoşunu dəstələrində 187 min nəfər döyüşçü vardı ki, onlardan da 30 min nəfərdən çoxu qadın idi. Azərbaycanda 1941-1945-ci illərdə 640 min nəfərdən çox səfərbər edilərək cəbhəyə göndərildi. Onlardan 300 min nəfəri həlak oldu. O qəhrəmanların övladları XX əsrin sonlarında doğma Vətənin başının üstünü yenidən qara buludlar alanda ayağa qalxdılar...

1980-ci illərin sonlarında Sovet Sosialist Respublikaları İttifaqı çökməkdə idi. Azərbaycanın müstəqilliyini tələb edən xalqımızın qətiyyəti tənəzzüldə olan, lakin hələ də gücünü itirməmiş Sovet İttifaqının rəhbərlərini hiddətləndirirdi. Belə bir vaxtda, 1988-ci ildə SSRİ-dən hər cür yardım alan qəsbkar Ermənistan Azərbaycana qarşı torpaq iddiası irəli sürdü. Təcavüzkar ermənilərin əsassız iddialarına və separatçı çıxışlarına etiraz edən silahsız gənclər fevralın 22-də Ağdamdan Xankəndiyə yürüş etdilər. Onlar Əsgəran ərazisində ermənilərin atəşinə məruz qaldılar. İki azərbaycanlı gənc ermənilər tərəfindən qətlə yetirildi.

Ermənistanın Azərbaycana qarşı yenidən başlatdığı münaqişənin alovları getdikcə Qarabağı bürüdü. 1990-cı ilin yanvarında Sovet İttifaqı rəhbərliyi azərbaycanlıların haqq səsini boğmaq, qətiyyətlərini qırmaq üçün Azərbaycana qoşun yeritdi. Respublikamızın paytaxtında yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu hissələrinin, xüsusi təyinatlı dəstələrin, daxili qoşunların iri kontingentinin və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbçilərin iştirakı ilə qətliam törədildi. Ancaq Sovet İttifaqı rəhbərliyi məqsədinə çata bilmədi. O dəhşətli gecədə dinc, günahsız övladları güllələbaran ediləndə, tanklarla üstlərindən keçiləndə də Azərbaycan xalqı mərdliyi, igidliyi ilə bütün dünyanı heyrətləndirdi.

Ermənistan Qarabağı, Şərqi Zəngəzuru müharibə ocağına çevirəndə respublikamızın bütün bölgələrindən igid oğullar, qızlar döyüşə yollandılar. Onlar düşmənə qarşı qəhrəmanlıqla vuruşdular. Ancaq Birinci Qarabağ müharibəsində Ermənistan xarici havadarlarının köməyi, gücü ilə Azərbaycanın iyirmi faiz ərazisini işğal edə bildi.

Otuz ilə yaxın işğalçı Ermənistanın silahlı qüvvələri Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərini işğal altında saxladı. Bir milyon soydaşımız məcburi köçkün kimi yaşamaq məcburiyyətində qaldı.

Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başladı. Ali Baş Komandanın qismən səfərbərlik əmri ilə igid oğullar Qarabağ və Şərqi Zəngəzur torpaqları uğrunda mübarizəyə qalxdılar. Qırx dörd gün ərzində Azərbaycanın qəhrəman oğulları erməni qəsbkarlarını diz çökdürdülər. Müzəffər Azərbaycan Ordusu otuz ilə yaxın işğalda qalmış ərazilərimizi azad etdi.

Birinci Qarabağ müharibəsində də, İkinci Qarabağ müharibəsində də, ötən ilin sentyabrında aparılan lokal xarakterli antiterror əməliyyatlarında da Azərbaycanın qəhrəman övladları göstərdilər ki, ataları, babaları kimi mərd və igiddirlər. Onlar sinələrini düşmən güllələrinə sipər edərək Vətənin candan əziz olduğunu bir daha təsdiq etdilər. O qəhrəmanlar bir daha göstərdilər ki, Vətənə sevgi, sədaqət bu xalqın varlığındadır. İllər, qərinələr, əsrlər dəyişsə də, bu, heç zaman dəyişməyəcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Tarix yazan oğullar

# "Mən arzuma çatmasam da, oğlum istəyinə yetişdi"

**Nicat dünyaya gələndə ermənilər ata yurdu Kəlbəcəri işğal edib dinc əhaliyə amansız divan tutmuşdular. Qarabağ işğal altında idi. Yurdumuzu xarabazara çevirən düşmən yeni ərazilər işğal etmək iddiasından da əl çəkməmişdi…**



Birinci Qarabağ müharibəsi qazisi Habil kişi hər gün oğluna ermənilərin xalqımızın başına gətirdiyi müsibətlərdən danışar, söhbətini "bu qan yerdə qalmamalıdır" nidası ilə tamamlayardı.

Məktəbdə müəllimlərinin, evdə valideynlərinin Qarabağ haqqında, erməni vandalizmi haqqında söhbətlərini dinləyən Nicatın böyüdükcə içində bir qəzəb püskürürdü. Ürəyində işğalda olan Vətən torpaqlarını azad etmək arzusu böyüyürdü. Atasının söhbətlərini dinləyən Nicat deyərmiş ki, "sizin həll edə bilmədiyiniz problemi biz həll edəcəyik. Bu işi gələcək nəsillərə saxlamaq olmaz".

Atası deyir ki, illər keçdikcə o torpaqların azad olunması haqqında söhbətlər bizə xəyal kimi görünürdü. Yurdu, yuvası viran olmuş bir insan kimi torpaqlarımızın azad olunmasını çox istəyirdim. Ata kimi isə arzum oğlumu evləndirmək, baba olmaq, övladımın xoşbəxt həyat sürməsini görmək idi. Nicatın təkcə arzusu yox, həm də məqsədi torpaqlarımızı azad görmək, torpaq uğrunda savaşmaq idi. Bu yolu özü seçmişdi. Təsəllim odur ki, mən arzuma çatmasam da, oğlum məqsədinə çatdı. İndi torpaqlarımız işğaldan azaddır. Cənab Prezidentimizin birbaşa rəhbərliyi ilə azadlığına qovuşmuş torpaqlarımızda əsl cənnət yaradılır. Oğlumun ruhu da bu gözəlliyi görüb şad olur.

Azərbaycan Ordusunun leytenantı Nicat Habil oğlu Atayev 1994-cü il martın 5-də Mingəçevir şəhərində dünyaya göz açıb. Nicat Gəncə şəhərində 55 saylı Kəlbəcər orta məktəbini bitirib.

2011-ci ildə həqiqi hərbi xidmətə gedən Nicat Atayev Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissədə qulluq edib. 2013-cü ildə hərbi xidməti başa vurduqdan sonra Gəncə Dövlət Universitetinin Fiziki hazırlıq fakültəsinə qəbul olunub.

Atası deyir ki, Nicatın uşaqlıqdan arzusu hərbçi olmaq idi. Hərbi xidmətini başa vurduqdan sonra da bütün sözü, söhbəti torpaqlarımızın işğaldan azad olunması ilə bağlı idi. Nicat ordumuzun gücünə çox inanırdı. Deyirdi ki, müharibə başlasa, biz qələbə çalacağıq. Ali təhsilini başa vurduqdan sonra zabit kimi orduda xidmət etmək üçün Müdafiə Nazirliyinə müraciət etdi. 2019-cu ildə üçaylıq zabitlik kursunu keçdikdən sonra oğlumu xidmət üçün Füzuli rayonundakı "N" saylı hərbi hissəyə göndərdilər.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda düşmənin qarşısına çıxan igidlərimizdən biri də ön cəbhədə xidmət edən leytenant Nicat Atayev idi. Döyüş yolu qısa olsa da, göstərdiyi qəhrəmanlıqlar böyük olub. O, Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı istiqamətində düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. Vətən müharibəsinin ilk şəhidlərindən olan Nicat Habil oğlu Atayev Bakıda İkinci Fəxri xiyabanda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında qəhrəmanlıq göstərən leytenant Nicat Atayev Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Anası Rəsmiyyə xanım Nicatla son telefon danışığını yada salır: "Sentyabrın 26-sı axşam saat 10-da zəng vurmuşdu. Atasını, qardaşlarını soruşdu. Müharibə olacağı haqqında heç eyham da vurmadı. Əhvalı çox yaxşı idi. Telefon danışığı bitəndən sonra ürəyimdən qəribə bir hiss keçdi. İçimdəki hiss deyirdi ki, bu sənin Nicatla son danışığındır. Oğlum xalqımızın üzünü ağ, torpaqlarımızı işğaldan azad edən qəhrəmanlardandır. Hər bir anaya belə bir igid övlad böyütmək nəsib olmur. Oğlumla fəxr edirəm".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Vətənpərvərlər

# Əsgərləri özünə qardaş bilən tibb bacısı

**Şəhidlərin məzarını ziyarət etmək üçün xiyabana tez-tez gedirik. Budur, yenə də həmin müqəddəs məkandayıq. Bir anlıq "Azərbaycan Bayrağı" ordenli Məleykə Əhmədovanın məzarı önündə ayaq saxlayırıq. Bu cəsur qadının başdaşındakı şəklindən boylanan baxışları qəlbimizdə onunla bağlı xatirələrimizi oyadır.**



Məleykəylə ilk dəfə soyuq qış günündə - 3 yanvar 1993-cü ildə cəbhə bölgəsində tanış olmuşduq. Həmin qarlı-şaxtalı gündə səngərlərdə yurdumuza keşik çəkən əsgərlərlə görüşüb hal-əhval tutduq, gətirdiyimiz sovqatı onlara payladıq. Məleykə əsgərlərdən birinin çəkməsinin söküldüyünü görəndə ayağından çəkməsini çıxarıb həmin döyüşçüyə verdi. Özü isə onunkunu geyindi. Əvvəlcə əsgər onu götürmək istəmədi. Belə olanda Məleykə üzünü ona tutub kədərli səslə: "Qardaşım Kamandar da sənin kimi əsgər idi. Bu yaxınlarda onu döyüşlərdə itirdik. Sən çəkmələrdən imtina etmə. Mən səni özümə qardaş bilirəm", - dedi. Bu sözlər əsgəri fikrindən döndərdi. Tibb bacısının mərd hərəkəti onun vətənpərvərliyindən və Azərbaycan əsgərinə sonsuz sevgisindən xəbər verirdi.

Axşama yaxın səngərlərdən geri döndük. Sağollaşanda Məleykə bizi hospitalın bir yaşına dəvət etdi. "Əgər həmin vaxt bu bölgədə olsaq, mütləq gələrik", - dedik. Xoşbəxtlikdən iş elə gətirdi ki, fevral ayının üçüncü ongünlüyü ərəfəsində həmin bölgəyə ezamiyyətə getdik. Məleykəyə verdiyimiz sözə sadiq qaldıq. O günlərdə hospital Ağdamın kəndlərinin birindəki məktəbdə yerləşirdi. Gəlişimizə sevinən tibb bacısı bizi gülərüzlə qarşıladı.

Həmin gün Məleykə ilə bir az da yaxından tanış olduq. Öyrəndik ki, tibb bacısı Azərbaycanın qədim torpaqlarından birində dünyaya göz açıb. Uzun illər doğma kəndləri olan Böyük Ayrımdan bir az uzaqdakı Axtala qəsəbəsində xəstəxanada tibb bacısı işləyib. Hələ sovet hökumətinin vaxtlarında ermənilər Məleykənin iki qardaşını - Yaqubu və Səyyadı vəhşicəsinə öldürmüşdülər. Üçüncü qardaşı Kamandar isə 1992-ci ilin dekabrında Fərrux dağı uğrunda gedən döyüşlərdə şəhid olmuşdu.

1988-ci ilin payızında Qarabağ hadisələri yenicə alovlanmağa başlayanda ermənilər onları doğma ocaqlarından qovublar. 1992-ci ilin fevral ayında hərbi-səhra hospitalı yaradıldığını eşidən tibb bacısı hərbçi kimi şəfa ocağında xidmətə başlayıb. Vaqonlarda yerləşən hospital fevral ayının 24-də Ağdam bölgəsinə yola düşüb. 25 fevral səhər-səhər qatar mənzil başına yetişib. Elə həmin axşam ermənilər yüzlərlə insanı amansızcasına qətl edərək dünyanı sarsıdan Xocalı faciəsini törədiblər. Məleykəgil həmin gərgin və faciəli günlərdə yüzlərlə Xocalı sakinini ölümün pəncəsindən xilas ediblər. Əgər o vaxtlar səhra hospitalı Ağdama göndərilməsəydi, yəqin ki, ölənlərin sayı daha da çox olacaqdı.

Dediklərini eşitdikcə Məleykə gözümüzdə daha da böyüyürdü. Tibb bacısı ürəyində üç qardaşın nisgilini və intiqamını daşıyırdı. Qəmli və qan qoxulu söhbətlərinə sonacan qulaq asandan sonra dərdini yüngülləşdirmək üçün Məleykəyə xoş sözlərlə təskinlik verdik.

Ağdam bölgəsinə gedəndə Məleykəylə bir neçə dəfə görüşdük. Sözlərindən, hərəkətlərindən hiss edirdik ki, onun qanı-canı vətənpərvərlikdən yoğrulub. Göstərdiyi cəsarətə, hünərə görə dövlət başçısının 9 oktyabr 1994-cü il tarixli fərmanı ilə Məleykə Əhmədovaya "Azərbaycan Bayrağı" ordeni verildi. Qardaşı Kamandar isə Qarabağ döyüşlərində göstərdiyi şücaətə görə (ölümündən sonra) "İgidliyə görə" medalına layiq görüldü.

2006-cı il idi. Məleykə xəstələnmişdi. Hospitalda yatırdı, vəziyyəti yaxşı deyildi. Ötən hər gün onu nərdivan kimi ömrünün sonuna yaxınlaşdırırdı. Məleykə şair təbiətli qadın idi. Qələmindən neçə-neçə incə ruhlu şeirlər çıxmışdı, kitabları çap olunmuşdu. O, ömrünün son günlərində də yazıb-yaradırdı. "Xocalı şərqisi" onun son əsəri oldu. Tibb bacısı ağır xəstə yatdığı günlərdə başının üstündən üçrəngli bayrağımızı asmışdı.

Məleykənin anası Sona xanım o kədərli günləri xatırlayaraq deyirdi ki, qızım ömrünün son günlərini yaşayırdı. Üçrəngli bayrağımızı başına sarımışdı. Deyirdi ki, ana, bütün ömrümü bu müqəddəs bayrağı Qarabağda dalğalandırmağa sərf etdim. Amma təəssüf ki, arzuma yetişmədən dünyadan köçürəm. Mən öləndən sonra bu bayrağı özündə saxla. Ordumuz torpaqlarımızı işğaldan azad edəndən sonra onu Qarabağın ən uca zirvəsində dalğalandırarsınız.

Məleykənin arzuladığı gün 2020-ci ilin payızında gəldi. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Qarabağı erməni işğalçılarından azad etdi. Yaxınları, doğmaları onun arzusunu yerinə yetirərək tibb bacısının xəstə yatanda başının üstündən asdığı bayrağı Qarabağda dalğalandırdılar. Məleykənin ruhu bundan rahatlıq tapdı, şad oldu...

Məleykə 1 iyun 1957-ci ildə dünyaya göz açmışdı. Amansız ölüm onu 18 avqust 2006-cı ildə sıralarımızdan apardı. Göz açdığı bu dünyada 49 il yaşadı. 49 illik ömründə nələr görmədi, nələr yaşamadı Məleykə. Sabahlarını böyük ümidlərlə yaşayırdı. 1 iyun uşaqların beynəlxalq müdafiəsi günü doğulmuşdu. Bəlkə də elə buna görə də saf və təmiz idi. Tibb bacısı onu tanıyanların yaddaşında həmişə bu cür saf, təmiz və səmimi qalacaq. Yaxınları, dostları onu həmişə xatırlayır və xatirəsini hörmətlə anırlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Karlton Universitetində Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

**Kanadanın paytaxtı Ottava şəhərində yerləşən Karlton Universitetində Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.**



Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, "Kanadanın Azərbaycanlı Tələbələr Assosiasiyası"nın təşkilatçılığı ilə keçirilən tədbirdə Xocalı qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib. Əslən Qarabağdan olan Toronto şəhər Təhsil Mərkəzinin Xarici Dillər Bölməsinin Azərbaycan dili sinfinin rəhbəri Yeganə Cəfərova Xocalı soyqırımı haqqında məlumat verib. O qeyd edib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri tərəfindən Xocalının dinc və günahsız əhalisinə qarşı xüsusi amansızlıqla kütləvi soyqırımı törədilib. 613 dinc sakinin qətlə yetirildiyi, 8 ailənin tamamilə məhv edildiyi və 1275 sakinin girov götürüldüyü Xocalı qətliamının soyqırımı kimi tanınması və cinayətkarların ədalət mühakiməsinə çıxarılmasının vacibliyi də xüsusi olaraq vurğulanıb.

Azərbaycanın haqq səsini Kanada ictimaiyyətinə çatdırmaq məqsədilə təşkil olunmuş tədbir zamanı müxtəlif etnik mənsubiyyətə malik tələbələr və universitetin müəllim heyəti eşitdikləri faktlar qarşısında təəccüblərini və kədərlərini gizlədə bilməyiblər.

# Mingəçevirdə "Zəfərə aparan yol" adlı tədbir keçirilib

**Mingəçevir Şəhər İcra Hakimiyyəti, "N" saylı hərbi hissə və Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Zəfərə aparan yol" adlı hərbi vətənpərvərlik tədbiri keçirilib.**



Hərbçilərin, şəhid ailələrinin, veteranların, qazilərin, məktəblilərin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb. Tanınmış incəsənət ustalarının ifasında musiqi proqramı ilə davam edən tədbirdə hərbi hissənin komando əsgərlərinin xüsusi döyüş hazırlığı, məktəblilərin kitab, rəsm, əl işləri sərgisi, mədəniyyət evlərinin təqdimatında milli kulinariya nümunələri və Novruz bayramı atributları nümayiş etdirilib. Əsgərlərlə gənclərin birgə kross qaçışı, müxtəlif oyunlar və rəqslər maraqla qarşılanıb.

# Azad olunmuş ərazilərdə bərpa-konservasiyaya ehtiyacı olan abidələrin ilkin sayı açıqlandı

**Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti ötən ilin iyun, avqust və oktyabr aylarında işğaldan azad edilmiş ərazilərdə tarix və mədəniyyət abidələrinin inventarizasiyasını davam etdirib.**



Bu, Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatında öz əksini tapıb. Məlumata əsasən, müxtəlif rayonlarda yerləşən 2 mindən çox tarix və mədəniyyət abidəsi barədə əldə olunan məlumatların təhlili nəticəsində məlum olub ki, ilkin mərhələdə 150 abidədə müvafiq olaraq bərpa-konservasiya işləri görülməlidir.

# Azərbaycanın xarici iqtisadi əlaqələri kəmiyyətdən keyfiyyətə keçir

Məlumdur ki, xarici iqtisadi əlaqələrin inkişafını şərtləndirən əsas amil uzaq və yaxın ölkələrlə münasibətləri genişləndirməkdir. Bu baxımdan, İqtisadiyyat Nazirliyinin atdığı addımlar intensivliyi və dinamikliyi ilə seçilir.

Bu yaxınlarda iqtisadiyyat nazirinin birinci müavini, Azərbaycan Respublikası Hökuməti və Braziliya Federativ Respublikası Hökuməti arasında Ticarət və İnvestisiya Əməkdaşlığı üzrə Birgə İşçi Qrupunun həmsədri Elnur Əliyev Braziliyanın Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyinin ticarət və beynəlxalq əlaqələr üzrə katibi Roberto Perosa ilə görüşmüşdür. Ölkələrimiz arasında ticarət dövriyyəsinin genişləndirilməsi və iqtisadiyyatın müxtəlif istiqamətləri üzrə əlaqələrin inkişafı üçün imkanların olduğu nəzərə çatdırılmış, Azərbaycanda sahibkarlar üçün yaradılmış əlverişli biznes və investisiya mühiti, sənaye zonalarında investorlar üçün nəzərdə tutulan güzəştlər və stimullar barədə danışılmışdır. Bundan başqa, COP29 çərçivəsində birgə fəaliyyət imkanları və "yaşıl" maliyyələşmə üzrə əməkdaşlıq məsələləri də nəzərdən keçirilmişdir.

Tərəflər həmçinin qarşılıqlı investisiya qoyuluşu, dövlət-özəl tərəfdaşlığı çərçivəsində əməkdaşlıq, aqrar sahədə əlaqələrin perspektivləri, o cümlədən Azərbaycanın kənd təsərrüfatı məhsullarının Braziliyaya ixracının genişləndirilməsi, ərzaq təhlükəsizliyi, aqroparklara müasir texnologiyaların cəlbi istiqamətində fikir mübadiləsi aparmışlar.

Elnur Əliyevin Moldovanın energetika naziri Viktor Parlikov arasında keçirilən görüşdə isə Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın əməkdaşlığımızın gücləndirilməsində və biznes dairələrinin səylərinin əlaqələndirilməsində səmərəli platforma olduğu vurğulanmışdır. Qeyd olunmuşdur ki, "yaşıl enerji" sahəsində qarşılıqlı faydalı əməkdaşlıq üçün ciddi perspektivlər mövcuddur.

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) energetika və infrastruktur naziri ilə görüşdə də iqtisadi əlaqələr, "yaşıl enerji" layihələrinin icrası, birgə fəaliyyətin genişləndirilməsi üçün investisiya imkanları və COP29 çərçivəsində əməkdaşlıq istiqamətləri müzakirə edilmişdir. İqtisadiyyat naziri Mikayıl Cabbarov, SOCAR-ın prezidenti Rövşən Nəcəf və Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Məhəmməd Al Mazrui arasında keçirilən həmin görüşdə iqtisadi-ticarət, qarşılıqlı investisiya qoyuluşu, logistika və s. sahələrdə tərəfdaşlığın genişləndiyi qeyd olunmuşdur. Bildirilmişdir ki, BƏƏ-nin "Masdar" şirkəti ilə "yaşıl enerji" sahəsində həyata keçirilən uğurlu əməkdaşlıq enerji təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Ölkəmizin əlverişli coğrafi mövqeyinin, mühüm nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsinin, tranzit imkanlarının artmasının investorların fəaliyyəti üçün geniş imkanlar açdığının vurğulandığı görüşdə bu imkanlardan yararlanan BƏƏ iş adamları ilə birgə layihələrin icrasının regional əməkdaşlığı daha da genişləndirəcəyi diqqətə çatdırılmışdır.

Azərbaycanın iqtisadi əlaqələrinin inkişafında önə çıxan amillərdən biri də Avropa İttifaqı ilə əməkdaşlığın inkişafıdır. Artıq bu çərçivədə Avropa İttifaqı investisiyalarının müəyyən edilməsi və prioritetləşdirilməsi üçün yaradılan yüksəksəviyyəli işçi qrupunun 2-ci iclasında mühüm məsələlər müzakirə olunmuşdur. Tədbirdə iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Avropa Komissiyasının Şərq Qonşuluğu və İnstitusional Quruculuq üzrə direktoru Adrienn Kirali, Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Peter Mixalko, xarici işlər və maliyyə nazirliklərinin, Avropa Yenidənqurma və İnkişaf Bankının, Avropa İnvestisiya Bankının nümayəndələri iştirak etmişlər. Avropa Komissiyası tərəfindən irəli sürülən flaqman təşəbbüslərin ölkəmizin növbəti onillikdə sosial-iqtisadi inkişafının milli prioritetləri ilə üst-üstə düşdüyünün qeyd olunduğu tədbirdə ölkəmizin beynəlxalq maliyyə institutları və Avropa İttifaqı ilə tərəfdaşlığa verdiyi önəm xüsusi vurğulanmışdır. Diqqətə çatdırılmışdır ki, Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair milli prioritetləri üzrə tədbirlərin həyata keçirilməsi, xüsusilə rəqabətqabiliyyətli iqtisadiyyatın təmini və digər məqsədlərə çatması beynəlxalq maliyyə institutları ilə əməkdaşlığı zəruri edir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***




# Texnoloji asılılıq

## İnkişaf meyli zərərli fəsad da yaradır

**Bu gün həyatımızın ayrılmaz hissəsinə çevrilən, istər iş, ünsiyyət, istərsə də əyləncə vasitəsi olan texnoloji cihazlardan, demək olar ki, kiçikdən böyüyə hər kəs istifadə edir.**



Texnoloji yeniliklərin asanlıqla qəbul edilməsinin səbəbi isə onların insanların işini asanlaşdırması və həyat səviyyəsini yüksəltməsidir. Lakin bu texnoloji cihazlarla bağlı narahatedici məqamlar da az deyil. Belə ki, onlar işimizi asanlaşdırmaqla yanaşı, asılılıq da yaradır, bir qisim insanı müasir texnologiya dövrünün "əsiri"nə çevirir.

### Texnoloji asılılığın dezavantajları

Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə açıqlama verən sosioloq Sahib Altay deyir ki, əksər hallarda zərurətdən doğan texnoloji cihazlar artıq həyatımızın mühüm bir parçasına çevrilib: "Zamanımızı, enerjimizi alan, beynimizi məşğul edən texnoloji vasitələr sərhədsiz informasiya qaynağıdır. Onlardan ən əsası mobil telefonlardır. Sosial həyatda olan müxtəlif, hüquqi, ənənəvi dəyər xarakterli qadağalar var ki, internet bu qadağaları aradan qaldırır. Üstəlik, sosial həyatlarında ünsiyyət qurmaqda çətinlik çəkən, fikirlərini rahatlıqla söyləyə bilməyən insanlar mütəxəssisə müraciət etmək əvəzinə, sosial həyatda edə bilmədiklərini virtual aləmdə kompensasiya edirlər".

S.Altay bildirir ki, virtual dünya insanların reallaşmayacağı arzularını da həyata keçirir: "Məsələn, tank sürücüsü, təyyarə pilotu olmaq istəyənlər virtual oyunlarda bunu asanlıqla reallaşdırırlar. Lakin bunun mənfi tərəfləri də var. İstifadəçilərin bu zəifliklərindən istifadə edilərək asanlıqla manipulyasiya da olunurlar. Belə ki, istifadəçilər bəzən mütəmadi olaraq neqativ və pozitiv xəbərlər alır, onların təsirində qalır və tətbiq edirlər".

Sosioloq bildirir ki, texnoloji asılılığın qarşısını almaq üçün elə virtual aləmdən istifadə etmək lazımdır: "Sosial media vasitəsilə insanların şəxsi həyatlarında bir sərhədin olmasını təbliğ etmək lazımdır. Lakin texnoloji asılılığın qarşısını tamamilə almaq mümkün deyil. İstifadəçilər bunu özləri anlamalı, psixoloji və sosial həyatlarına zərər verdiyini dərk etməlidirlər".

### Səbirsiz, impulsiv, unutqan...

Texnologiyanın inkişafı cəmiyyətə fayda verib, onun tərəqqisinə müsbət təsir göstərib. Psixoloq Elnur Rüstəmov qəzetimizə açıqlamasında bildirdi ki, bu gün texnologiyanın inkişafının qaranlıq tərəflərinin də şahidi oluruq: "Texnoloji inkişafla əlaqədar insanların bir qismi reallıq hissinin mühüm aspektlərini itirir və ondan uzaqlaşır. Bu da özlüyündə insanı səbirsiz, impulsiv, unutqan və hətta daimi psixoloji narahatlıqlar yaşayan biri edir. Buna görə də son zamanlar mütəxəssislər cəmiyyətin texnologiyadan asılılığı ilə bağlı həyəcan təbili çalırlar".

E.Rüstəmovun sözlərinə görə, yaşından, cinsindən, etnik mənsubiyyətindən və ya iqtisadi statusundan asılı olmayaraq, insanların əksəriyyəti smartfon istifadəçiləridirlər: "Biz onlardan yemək masasından tutmuş avtomobil sürənədək hər yerdə istifadə edirik. Telefonlar itirildikdə, hətta bir neçə dəqiqəlik əlçatmaz olduqda belə narahat oluruq. Bu gün sosial şəbəkələrdən tutmuş, yaxınlarımızla qurduğumuz internet əlaqələrinədək, hətta ödənişlərdən tutmuş yuxuya qədər hər şey internetlə əlaqəlidir. Bütün bu bəsit bağlantılar məhz texnoloji asılılığa təkan verir. Odur ki, ekspertlər tərəfindən "21-ci əsrin bəlkə də ən böyük asılılığı" kimi dəyərləndilir. Hətta 2010-cu ildə "The New York Times"da bu mövzunu işıqlandırarkən psixiatrlardan biri bu haqda belə bir fikir irəli sürmüşdü: "Həyat getdikcə daha çox söhbət otağına bənzəyir. Biz bu virtual həyat tərzinə görə real həyatımızın bədəlini ödəyirik".

### Real və virtual tarazlığı qorumaq lazımdır

Keçmişdə texnologiyanın gələcəyinə dair əsas narahatlığın şəxsiyyətlərarası münasibətləri və sosial normaları pozması olduğunu qeyd edən psixoloq bu gün həmin qorxuların öz reallıqları ilə cəmiyyətin üzərini qara bulud kimi aldığını vurğulayır: "Bəzi araşdırmalar göstərir ki, mobil telefonlardan və digər elektron cihazlardan həddindən artıq istifadə psixoloji problemlər yaradır. Bura özünə hörmətin aşağı olması, impulsivlik, sensasiya axtarışı və yüksək dərəcədə ekstrovert və ya introvert şəxsiyyət olmaq kimi səbəblər daxildir. Texnologiyadan asılılıq sosial fobiya, sosial həyəcan pozuntusu və ya panik pozuntu kimi əvvəllər mövcud olan psixoloji pozuntuların simptomlarını da artıra bilər. Bu da özünü nəticə etibarilə həddindən artıq ağır şəkildə büruzə verir".

E.Rüstəmov bildirir ki, daim telefon zəngi, sms, e-poçt və ya sosial media bildirişi gözlədiyimiz zaman beynimiz bunu narahatlıq kimi qeydə alır və o şəkildə də cavab verir. Belə ki, istifadəçilər rəqəmsal dünyada baş verənləri qaçırmaqdan qorxduqları üçün onlarda daxili, gizli təşviş hissi yaranır. Kənardan elə görünür ki, insan bu gözləntilər zamanı həzz alır. Lakin həqiqət əksinədir, çünki şəxs o situasiyada fərqində olmadan narahatlığını azaltmağa çalışır.

"Nizamsız onlayn davranış nümayiş etdirənlər heç vaxt bundan tamamilə imtina edə bilməzlər. Buna görə də bəzi ekspertlər telefonunuzu tez-tez yoxlamağa məhdudiyyətlər qoymağı və hətta arabir özünüzü smartfonlardan uzaqlaşdırmağı məsləhət görürlər. Bu gün bir çox ölkələrdə bəzi restoranlar və ictimai iaşə obyektləri "mobil telefondan istifadə etmək qadağandır" və "sakit zona" üsuluna keçərək bu asılılığa qarşı gəlməyə çalışırlar. Bu cür təcrübələrə bir çox ictimai yerlərdə siqaretdən istifadənin necə qadağan edildiyini xatırladır. Ekspertlər texnologiyanın mənfi təsirləri ilə mübarizədə bu üsulun yaxın illərdə bir çox ölkələrdə tətbiq edilməsinin zərurətini vurğulayırlar", - deyə psixoloq bildirir.

E.Rüstəmov qeyd edir ki, davam edən innovasiya və texnologiya dəyişiklikləri ilə real və virtual həyat arasındakı tarazlığı saxlamaq insanlığa veriləcək ən böyük töhfədir. İnsanlar texnologiyaya bağlılığın daha tez fərqinə varsalar, onunla əlaqəli mənfi davranışları azaltmağa kömək edəcək strategiyaların və hətta müalicənin də fərqinə vara bilərlər. Unutmamalıyıq ki, insan olaraq biz ünsiyyət üçün yaradılmışıq. Ünsiyyət bütün insan münasibətlərinin təməlidir. Bu əlaqələr isə kifayət qədər qarşılıqlı bağ olduqda formalaşır. Ünsiyyət insanlara öz fikirlərini və hisslərini ifadə etməyə və eyni zamanda digər insanın duyğularını və düşüncələrini anlamağa kömək edir. Ən əsası isə o, bu gün cəmiyyətin əskikliyi olan empatiyanı inkişaf etdirir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Acınohur düzünə növbəti dəfə ceyranlar buraxılıb



**Ceyranların mühafizəsi, tarixi areallarının bərpası, reintroduksiyası, populyasiyalarının formalaşmasına töhfə verilməsi məqsədilə növbəti dəfə Acınohur düzünün Qax Dövlət Təbiət Yasaqlığına aid ərazisinə ceyranların buraxılması həyata keçirilib.**

Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirliklərinin, Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF), Qax rayon İcra Hakimiyyətinin nümayəndələrinin, ETSN yanında İctimai Şuranın üzvlərinin və ekokönüllülərin iştirakı ilə 8 baş ceyran təbiətə buraxılıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Arzu Babayeva AZƏRTAC-a bildirib ki, ötən dövr ərzində 370 baş ceyran ölkənin müxtəlif məkanlarına, tarixən ceyranların yaşadıqları ərazilərə reintroduksiya olunub. Elə Acınohur çöllərinə gətirilən ceyranlar da qısa müddətdə əraziyə uyğunlaşır.

Diqqəti cəlb edən maraqlı məqamlardan biri də ölkəmizin müxtəlif ali məktəblərində təhsil alan tələbə-könüllülərə ceyranların təbiətə buraxılma anını izləməsinə şəraitin yaradılmasıdır. Gələcəyin ekoloqları olan tələbələr bu tarixi anlara şahidlik etməkdən qürur duyduqlarını və gələcək həyatlarında mühüm hadisə kimi qalacağını bildirirlər.

Qax Dövlət Təbiət Yasaqlığının Acınohur çölü və Axar-baxar ərazisinə ceyranların köçürülmə prosesi başa çatandan sonra iştirakçılar ağacəkmə aksiyasına da qatılıblar. Axar-baxar yaylasında müxtəlif növ ağaclar əkilərək, qulluq göstərilib.



# Əsərlərin qeydiyyatının müəlliflər və hüquq sahibləri üçün hansı faydaları var?

Azərbaycan qanunvericiliyinə əsasən, ölkəmizdə əsərlərin könüllü qeydiyyat sistemi mövcuddur. Müəlliflər və hüquq sahibləri əsərlərini könüllü şəkildə Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçirə və əsərin qeydiyyatı haqqında şəhadətnamə ala bilərlər.




Agentlik tərəfindən qeydiyyat prosesinin asanlaşdırılması üçün hər cür şərait yaradılıb. Yəni müəlliflər (hüquq sahibləri) agentliyə gəlmədən "Elektron hökumət" portalı vasitəsilə əsərlərini Agentlikdə qeydiyyatdan keçirmək imkanına malikdirlər.

Bu barədə AZƏRTAC-a agentlikdən məlumat verilib. Bildirilib ki, əsərlərin qeydiyyatının müəlliflər və hüquq sahibləri üçün böyük faydası var.

Müəllif hüquqları sahəsində qanun pozuntuları baş verdikdə, məsələn, əsərdən icazəsiz istifadə edildikdə, plagiat halları yarandıqda bu mübahisələrə məhkəmədə baxılır. Belə hallarda müəlliflərin digər sübutları olmadıqda agentlik tərəfindən verilən qeydiyyat haqqında şəhadətnamə məhkəmə tərəfindən müəlliflik prezumpsiyası kimi tanınır. Bu baxımdan, müəlliflər öz əsərlərinin Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçirilməsinə maraqlıdırlar.

Qeyd olunub ki, 2023-cü ildə agentlik tərəfindən 386 müəllifin (hüquq sahibinin) 713 əsəri qeydiyyatdan keçirilib və əsərin qeydiyyatı haqqında 717 şəhadətnamə verilib. Bu, 2022-ci illə müqayisədə 20 faiz çoxdur. O cümlədən "Elektron xidmət" bölməsi vasitəsilə 324 müəllifin (hüquq sahibinin) 626 əsəri qeydiyyatdan keçirilib (bu, 2022-ci il ilə müqayisədə 73 faiz çoxdur).

2023-cü ildə Əqli Mülkiyyət Agentliyində əlaqəli hüquqların obyektləri kimi 162 ifa (2022-ci ildə 46 ifa) və 37 kompüter proqramı (2022-ci ildə 18 kompüter proqramı) qeydiyyata alınıb.

Ümumilikdə isə əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən indiyə qədər agentlikdə bütövlükdə 16 minə yaxın əsər və əlaqəli hüquqların obyektləri qeydiyyatdan keçirilib.

Əqli Mülkiyyət Agentliyi müəlliflərə (hüquq sahiblərinə) xatırladır ki, əsərə olan hüquqların qorunması və müdafiəsi üçün ən etibarlı vasitə onların bu qurumda qeydiyyata alınmasıdır.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

**gəmiləri üçün radionaviqasiya avadanlıqlarının satın alınması məqsədilə**

***açıq müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 12 mart 2024-cü il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

**gəmiləri üçün separatorların satın alınması məqsədilə**

***açıq müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 12 mart 2024-cü il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***


# Hayastanda hərbi xunta çevriliş planı hazırlayır

## Revanşistlər Paşinyana qarşı Qarabağ ermənilərindən istifadə etməyi planlaşdırırlar

**Son günlərdə Hayastanda narazılıq və qarşıdurma hallarının daha da artması, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin bir qədər də kəskinləşməsi müşahidə olunur.**



Müxalifət qarşıdakı günlərdə planlaşdırdığı aksiyalarla baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmağı hədəfləyir. Müxalifətçilər etirazlarına səbəb kimi hakimiyyətin yürütdüyü uğursuz siyasəti göstərirlər. Onlar baş nazirin xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, xalqı dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər. Ümumiyyətlə, 2018-ci il inqilabından sonra Hayastanda xalq arasında nüfuzunu itirən Sarkisyan-Koçaryan koalisiyasına havadarlıq edənlər artıq başqa adlar üzərində axtarışa çıxıblar. Qatı rusiyayönlü siyasi qüvvələrin yaratdığı "Birgə" alternativ ictimai-siyasi hərəkatı hökuməti devirmək məqsədilə kütləvi etirazlara başlamağı planlaşdırırlar.

Hayastanın baş nazir aparatı rəhbərinin müavini Taron Çaxoyan deyib ki, müxalifət Qarabağdan köçən ermənilər vasitəsilə ölkədə çevriliş etmək istəyir. O, müxalifətin hakimiyyət əleyhinə hərəkətlərinin Zəngəzurdan dəhliz verilməsi ilə nəticələnəcəyini bildirib: "Küçələrdə sirk nümayəndələri kimi dolaşan şəxslər Qarabağdan köçənlərin emosiyaları ilə oynayırlar. Sakinləri küçə döyüşlərinə başlamağa, çevriliş etməyə çağırırlar. Qarabağın guya xilası üçün çevriliş etdilər, nəticədə oranı itirdik. İndi Ermənistanda Qarabağdan köçən şəxslər vasitəsilə çevriliş etmək istəyirlər. Son məqsədləri Zəngəzurdan Azərbaycana dəhliz verməkdir".

"Past" nəşri isə yazıb ki, Hayastanda yeni milli hökumətin formalaşdırılması anı çoxdan yetişib və bu məsələdə cəmiyyətin əksəriyyəti arasında konsensus formalaşıb. Nəşr qeyd edib ki, bunu həm müxtəlif mərkəzlər tərəfindən dərc edilən sorğular, araşdırmalar, həm də ictimai rəylər sübut edir. Müxtəlif sorğular göstərir ki, insanların 60 faizindən çoxu ölkəyə rəhbərlik edən yeni siyasi qüvvə görmək istəyir. Məlumata görə, son vaxtlar daxili siyasi sahədə diqqətəlayiq "sualtı" proseslər gedir: "Mənbələrimiz bildirir ki, müxtəlif siyasi qüvvələr və xadimlər arasında demək olar ki, hər gün müxtəlif platformalarda hələlik açıqlanmayan görüşlər keçirilir. Həmin görüşlərin əsas mövzusu, belə demək mümkündürsə, "üçüncü qüvvə"nin yaradılması yoluyla ölkəni məhvə aparan hakimiyyətdən bir an öncə qurtulmaq məqsədilə resursların birləşdirilməsinin zəruriliyidir".



Proseslər göstərir ki, keçmiş hərbi xunta yaranmış vəziyyətdən istifadə edərək ölkədəki xaosu daha da dərinləşdirməyə çalışır. Bununla da sabiqlər yenidən hakimiyyət başına qayıtmağı düşünürlər. Əsas niyyət son günlərdə daha da alovlanan etirazlar nəticəsində hakimiyyətə qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olmaqdır. Bundan sonra güc yolu ilə olsa belə, hakimiyyəti qəsb etməkdir.

Beləliklə, müxalifət İrəvanda etirazlara başlayacağını bəyan etməklə bu yoldan dönməyəcəyini bildirir. Paşinyan isə ona qarşı yönəlmiş təhdidləri güc yolu ilə aradan qaldırmağı düşünür. Bu isə o deməkdir ki, Hayastanda qarşıdakı dövrdə qanlı günlər yaşana bilər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Bakıda 11, regionlarda 15 dərəcəyədək isti olacaq



**Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, martın 7-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman, az çiskin, gecəyə doğru isə yağıntılı olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi axşama doğru arabir güclənəcək. Havanın temperaturu gecə 3-6°, gündüz 7-11° isti olacağı proqnozlaşdırılır. Atmosfer təzyiqi 759 millimetr civə sütunu olacaq. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 5-10° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən və Gədəbəy rayonlarında hava şəraitinin gün ərzində bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı, axşama doğru qar yağacağı gözlənilir. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-8° isti olacağı ehtimal edilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında havanın dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8°, bəzi yerlərdə 13°-dək isti olacağı güman edilir.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 8-13° isti olacağı proqnozlaşdırılır.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 8-13° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-6° isti olacağı güman edilir.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 10-15° isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-5°, gündüz 9-14° isti, dağlarda gecə 0-5°, gündüz 5-9° isti olacağı güman edilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Nüşabə Qənbərliyə anası

**İMARƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Şəki Apellyasiya Məhkəməsinin hakimi İmanverdi Şükürova əzizi

**ƏRZUMAN FEYZULLA OĞLU BƏDƏLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4298**
**Sifariş 514**

**Qiyməti 60 qəpik**